AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyası.az

Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti

№ 42 (1442), 19 - 25 noyabr 2019-cu il

Qəzet 2001-ci ildən çıxır.

## Avropa Gimnastika İttifaqının adı dəyişdirilib




Bolqarıstanın paytaxtı Sofiya şəhərində Avropa Gimnastika İttifaqının ikiillik Baş Assambleyası keçirilib.

Ölkəmizi tədbirdə Azərbaycan Gimnastikası Federasiyasının (AGF) baş katibi Nurlana Məmmədzadə, İcra Komitəsinin üzvü Mariana Vasileva, federasiyanın beynəlxalq əlaqələr üzrə meneceri Mehman Əliyev və texniki direktoru Natalya Bulanova təmsil ediblər.

Qırx yeddi üzv federasiyanın iştirak etdiyi Baş Assambleyada bir sıra mühüm qərarlar qəbul edilib. Əsas qərarlar isə gimnastikanın gələcək inkişafı naminə təşkilatın Nizamnaməsinə bir sıra dəyişikliklərin edilməsi və təşkilatın adının dəyişdirilməsi sayıla bilər. Bundan sonra Avropa Gimnastika İttifaqı “Avropa gimnastikası” adlanacaq. Bu dəyişiklik isə 2020-ci il aprelin 1-dən qüvvəyə minəcək.

“Avropa gimnastikası”na 2006-2017-ci illərdə AGF-nin baş katibi olmuş, azərbaycanlı Fərid Qayıbov rəhbərlik edir.

Təşkilatın Baş Assambleyasının növbəti iclası isə 2021-ci ilin dekabrında Portuqaliyanın Albufeyra şəhərində keçiriləcək.

## Tokio-2020: Azərbaycan idmançıları 10-cu lisenziyanı əldə etdilər




Federasiyadan verilən məlumata görə, UCİ-nın reqlamentinə əsasən, kişilərin şose velosipedində Olimpiadaya lisenziya xalları verən yarışlar 2019-cu ilin oktyabr ayında başa çatıb. Olimpiya reytinqinin ilk 50 pilləsində qərarlaşan milli federasiyaların 130 idmançısı 4 illiyin zirvə yarışında iştirak hüququna yiyələnib.

Ümumilikdə UCİ-a üzv olan 196 milli federasiyadan 115-i Tokio-2020 Yay Olimpiya Oyunlarına lisenziya xalları qazanıb ki, Azərbaycan milli komandası da onların arasında 44-cü yerdə qərarlaşıb.

Qeyd edək ki, şose velosipedində lisenziyalar milli federasiyalara verilir və Olimpiadada mübarizə aparacaq idmançını federasiya müəyyənləşdirir.

Xatırladaq ki, Azərbaycan idmançıları indiyədək Tokio-2020 Yay Olimpiya Oyunlarına 10 lisenziya qazanıblar. Çəkicatanımız Anna Skidanın, güləşçilər Mariya Stadnik (50 kq) və Şərif Şərifovun (97 kq), bədii gimnastımız Zöhrə Ağamirovanın, bədii gimnastika üzrə qrup hərəkətləri komandamızın, güllə atıcımız Ruslan Lunyovun, üzgüçümüz Maksim Şemberevin, idman gimnastları Marina Nekrasova və İvan Tixonovun, həmçinin kişilər arasında şose velosipedi növündə 1 idmançımızın Yay Olimpiya Oyunlarında ölkəmizi təmsil edəcəkləri dəqiqləşib.

Azərbaycan Tokio-2020 Yay Olimpiya Oyunlarının kişilər arasında şose velosipedi növündə təmsil olunacaq.

Bununla bağlı Beynəlxalq Velosipedçilər İttifaqı (UCİ) tərəfindən Milli Olimpiya Komitəsinə və Azərbaycan Velosiped İdmanı Federasiyasına təsdiq məktubu göndərilib.

Bu müddət ərzində yığmamızın baş məşqçisi Əbülfəz Məmmədovun rəhbərliyi altında heyəti Elçin Əsədov, Samir Cəbrayılov, Musa Mikayılzadə, Mikayıl Səfərli və Mahmud Məmmədovdan ibarət komandamız lisenziya xalları verən nüfuzlu beynəlxalq yarışlarda 894 xal toplayıb.

## “Masters” turnirində Azərbaycanı 15 cüdoçu təmsil edəcək



Dekabrın 12-14-də Çinin Tsindao şəhərində cüdo üzrə “Masters” turniri keçiriləcək. Dünyanın ən güclü cüdoçularının yarışacağı bu turnirdə Azərbaycanın 9 kişi, 6 qadın idmançısı iştirak edəcək. Kişilərin yarışında ölkəmizi Kəramət Hüseynov (60 kq), Nicat Şıxəlizadə, Orxan Səfərov (hər ikisi 66 kq), Rüstəm Orucov, Hidayət Heydərov (hər ikisi 73 kq), Məmmədəli Mehdiyev (90 kq), Elmar Qasımov, Zelim Kotsoyev (hər ikisi 100 kq), Uşangi Kokauri (100 kq-dan yuxarı) təmsil edəcəklər. Qadınlar arasında isə Leyla Əliyeva, Aişə Qurbanlı (hər ikisi 48 kq), Gültac Məmmədəliyeva (52 kq), İçinxorloo Münxtsedev, Aleksandra-Larisa Florean (57 kq), İrina Kindzerska (78 kq-dan yuxarı) mübarizə aparacaqlar. Turnirdə 60-a yaxın ölkədən 400-dən çox idmançı gücünü sınayacaq.

**AVRO-2020** (təsnifat)

### “Slovakiya” - “Azərbaycan”

*19 noyabr. Trnava. “Anton Malatinsky” stadionu. Saat 23:45.*

## Anons

***Beynəlxalq Paralimpiya Komitəsinin 30 illiyi münasibətilə tədbir keçirilib***

Səh. 2

Atletimiz xatirə turnirinin qalibi oldu

Səh. 2

***Azərbaycan futbolunun 79 yaşlı canlı əfsanəsi***

Səh. 3

Azərbaycanda idmanın inkişafı yüksək qiymətləndirilib

Səh. 3

***İdman və təhsil bir-biri ilə vəhdət təşkil etməlidir***

Səh. 5

Tanqonun ritmləri altında...

Səh. 6

## Olimpizm

### Şəhər administrasiyası 13,7 milyon dollar xərcləyib

Tokio şəhər administrasiyası 2020-ci il Yay Olimpiya Oyunlarında isti ilə bağlı Sapporo şimal şəhərinə dəyişdirilmiş marafonun və idman yerişi yarışlarının hazırlıqlarına təqribən 1,5 milyard yen (13,7 milyon dollara yaxın) xərcləyib. Bu barədə Kyodo agentliyi xəbər yayıb.

Qeyd olunur ki, bu vəsait qaçış üçün yolların istilik keçirməyən materialla döşənməsinə sərf edilməli idi. Tokio hakimiyyət orqanları, həmçinin bu işlərə cari maliyyə ilinin sonunadək təqribən 800 milyon yen (7,3 milyon dollara yaxın) xərcləməyi planlaşdırırlar. Bununla yanaşı, planlaşdırılmış tədbirlərin yerinin dəyişdirilməsinə görə kompensasiya ilə bağlı Beynəlxalq Olimpiya Komitəsinə (BOK) müraciətin mümkünlüyü nəzərdən keçiriləcək.

Noyabrın 1-də BOK və Yaponiya paytaxtının administrasiyası bu yarışların Tokioda keçirilməsindən tamamilə imtina ediblər. Eyni zamanda, Tokionun qubernatoru Yuriko Koike qeyd edib ki, o, müvafiq qərarla razı deyil, lakin onu bütünlüklə icra etməyə söz verib.

Bundan əvvəl həyata keçirilən ölçmələrə əsasən, 3 il ərzində iyulun sonundan avqustun əvvəlinədək Tokioda havanın hərarəti 30 dərəcəni sabit şəkildə keçib. Bu, 1964-cü ildə Tokioda Olimpiadanın keçirildiyi ildəki göstəricilərdən xeyli yüksəkdir. Lakin o zaman yarışlar oktyabrın əvvəlində keçirilmişdi.

Qeyd edək ki, XXXII Yay Olimpiya Oyunları 2020-ci il iyulun 24-dən avqustun 9-dək Tokioda keçiriləcək.

## Gələn il Azərbaycan Gimnastika Federasiyası üçün beynəlxalq tədbirlərlə zəngin olacaq

Azərbaycan Gimnastika Federasiyası üçün 2020-ci təqvim ili də beynəlxalq tədbirlərlə zəngin olacaq. Belə ki, növbəti ildə federasiya tərəfindən dünya və Avropa çempionatları da daxil olmaqla 8 beynəlxalq yarış təşkil ediləcək. İlk olaraq beynəlxalq yarışlara batut gimnastikası və tamblinq üzrə lisenziya xarakterli dünya kuboku ilə start veriləcək. Fevralın 15-16-da keçiriləcək yarışda ilkin qeydiyyat siyahısına əsasən, artıq 26 ölkə iştirakını təsdiq edib. Yarışda təxminən 238 gimnastın iştirakı gözlənilir. Martda Milli Gimnastika Arenasında baş tutacaq növbəti yarışlar isə kişi idman gimnastikası üzrə "AGF Junior Trophy" adlı beynəlxalq turnir və Tokio-2020 Yay Olimpiya Oyunlarına daha bir lisenziya xarakterli yarış - idman gimnastikası üzrə dünya kubokudur. "AGF Junior Trophy" turniri martın 7-8-də, dünya kuboku isə 1 həftə sonra - martın 12-15-də təşkil ediləcək.

İlkin qeydiyyat siyahısına əsasən dünya kubokunda iştirak etmək istəyən ölkələrin sayı 48-dir. Bu yarış üçün 321 gimnast Bakıya təşrif buyuracaq.

Bədii gimnastika üzrə yarışlar isə ənənəyə uyğun olaraq aprel ayında keçiriləcək. Aprelin 17-19-da Bakıda ilk dəfə Yana Batırşinanın mükafatları uğrunda bədii gimnastika üzrə 7-ci açıq turnir, aprelin 24-26-da isə bədii gimnastika üzrə ənənəvi dünya kuboku təşkil olunacaq.

Bədii gimnastika üzrə ənənəvi dünya kubokunun iştirakçıları da Olimpiadaya vəsiqə qazanmaq şansı əldə edəcəklər. Bu yarış üzrə ölkələrin ilkin iştirak siyahısı isə dekabrda bəlli olacaq.

Mayda Azərbaycan daha irimiqyaslı beynəlxalq yarışlara ev sahibliyi edəcək. Aerobika gimnastikasının ölkəmizdə 2013-cü ilin sonlarından etibarən inkişaf etdirilməsinə baxmayaraq, bu növ üzrə Dünya Yaş Qrupu Yarışları (8-10 may) və dünya çempionatının (14-16 may) təşkili 2020-ci ildə məhz Azərbaycana həvalə olunub. Xatırladaq ki, 2019-cu ilin may ayında ilk dəfə olaraq Bakıda aerobika gimnastikası üzrə Avropa çempionatı uğurla keçirilmişdi.

Mayın 27-31-də ölkəmizdə ilk dəfə olaraq kişi idman gimnastikası üzrə Avropa çempionatı təşkil ediləcək. Qitənin ən güclü idmançılarının toplaşacağı bu yarış da iki ay sonra baş tutacaq Olimpiya Oyunlarının kişi idman gimnastikası üzrə yarışlarına vəsiqə qazandıracaq son yarış olacaq.



## Atletimiz xatirə turnirinin qalibidir

Türkiyənin Qaziantep şəhərində təşkil olunan ağırlıqqaldırma üzrə üçqat Olimpiya çempionu Naim Süleymanoğlunun xatirəsinə həsr olunmuş beynəlxalq turnirə yekun vurulub. Tokio-2020 Yay Olimpiya Oyunlarına gümüş səviyyəli lisenziya xarakteri daşıyan bu yarışda 20-dən çox ölkədən 80-ə yaxın atlet çıxış edib. Onların arasında Azərbaycan yığmasının üzvləri də var. Baş məşqçi Asif Məmmədovun rəhbərliyi altında Səbinə Əzimova (55 kq), Boyanka Kostova (59 kq), Füqan Əliyev (81 kq) və Tərmenxan Babayev (96 kq) körpücük üzərinə çıxıblar. Komandamızın üzvü Boyanka Kostova (59 kq) ümumilikdə 219 kiloqram (95 kq + 124 kq) nəticə ilə bütün rəqiblərini qabaqlayaraq turnirin qızıl medalını qazanıb. Digər xanım atletimiz Səbinə Əzimova 55 kq çəki dərəcəsində ümumilikdə 173 kq (75 kq + 98 kq) nəticə ilə dördüncü yeri tutub. Millimizin üzvlərindən Füqan Əliyev kişilərin mübarizəsində 81 kq çəki dərəcəsində yarışıb. Gənc atletimiz ümumilikdə 291 kq (131 kq + 160 kq) nəticə ilə 5-ci yeri tutub.

Yığmamızın digər üzvü Tərmenxan Babayev isə 96 kq çəki dərəcəsində qüvvəsini sınayıb. Atletimiz ümumilikdə 313 kq (143 kq + 170 kq) nəticə ilə 7-ci yeri tutub.

## Badmintonçumuz Kamerunda birinci oldu




Azərbaycan badmintonçusu Edi Reski Dviçayo Kamerunun paytaxtı Yaunde şəhərində keçirilən "Cameroon International 2019" turnirində qızıl medal qazanıb. Azərbaycan Badminton Federasiyasından verilən məlumata görə, yarışın 1 nömrəli favoriti sayılan E.Dviçayo mübarizəyə 1/8 finaldan başlayıb. Birinci görüşündə əlcəzairli Məhəmməd Əbdüləzizə 2:0 hesabı ilə qalib gələn təmsilçimiz uğurlu çıxışını 1/4 finalda da davam etdirib. Nigeriya təmsilçisi Qodvin Olofuanı ilk setdə çətinliklə məğlub edən badmintonçumuz, ikinci seti rəqibi üzərində aşkar üstünlüklə bitirib.

Yarımfinalda badmintonçumuzun rəqibi belçikalı Maksim Moreels olub. Gərgin və maraqlı mübarizə şəraitində keçən görüşdə badmintonçumuz rəqibini 2:1 hesabı ilə məğlub edib. E.Dviçayo turnirin finalında Avstriya idmançısı Luka Vraberlə qarşılaşıb. Üç set davam edən görüşün yekununda Edi rəqibi üzərində 2:1 hesablı qələbə qazanıb.

Turnirin qalibi adını qazanan E.Dviçayo hesabına 2500 reytinq xalı yazdırıb.

## Beynəlxalq Paralimpiya Komitəsinin 30 illiyi münasibətilə tədbir keçirilib



Beynəlxalq Paralimpiya Komitəsinin 30 illik yubileyi münasibətilə Bakıda, Gənc Tamaşaçılar Teatrında "Yenilməzlər" adlı beynəlxalq qala tədbir keçirilib.

Tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, Beynəlxalq Paralimpiya Komitəsinin təmsilçiləri, ölkəmizin idman ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Heydər Əliyev Fondunun və Azərbaycan Milli Paralimpiya Komitəsinin təşkilatçılığı ilə keçirilən və özünəməxsusluğu ilə seçilən tədbirdə fiziki məhdudiyyətli insanların həyat hekayələri kölgə teatrı, ultrabənövşəyi şou və pantomima tamaşaları vasitəsilə təqdim olunub.

İştirakçılar əvvəlcə paralimpiyaçılarımızın uğurlarından bəhs edən fotolardan ibarət stendə baxıblar.

Tədbirdə "Yenilməzlər"in loqosu təqdim olunub. İlk baxışdan sadə görünən loqo özündə paralimpiya ruhunu əks etdirir. Loqonun mərkəzində yüksələn məşəl qalibiyyəti və qələbə ruhunu təcəssüm etdirir. Alovun dilləri Azərbaycan bayrağının rənglərinə boyanıb. Aşağı hissədə isə Beynəlxalq Paralimpiya Komitəsinin "Hərəkətdə olan ruh" simvolu yer alıb. Loqoda uğuru və dinamik həyatı özündə əks etdirən ürək formasında həyat rəmzi də yer alıb.

Tədbirdə fiziki məhdudiyyətlərə baxmayaraq, uğur qazanan tanınmış şəxslər həyat hekayələrini tamaşaçılarla bölüşüblər.

"Yenilməzlər"in ilk qonaqları fiziki məhdudiyyətlər qarşısında yenilməyən, çətinlikləri aşaraq həm idmanda, həm də ictimai həyatda böyük uğurlar qazanaraq dünya səviyyəsində çox nüfuzlu insanlara çevrilməyi bacaran Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının fəxri cəngavər-bakalavrı, Beynəlxalq Paralimpiya Komitəsinin ikinci prezidenti Ser Filip Kreyven və Böyük Britaniya Paralimpiya Assosiasiyasının fəxri vitse-prezidenti Entoni Seynsburi olub.

Ser Filip Kreyven 16 yaşında olarkən dağa dırmanma zamanı baş verən bədbəxt hadisə nəticəsində onurğa sütunu zədələnib. Həmin vaxtdan bəri o, əlil arabasından istifadə etməyə məcbur olub. Lakin keçirdiyi qəza və ondan sonra yaranan fiziki məhdudiyyət Filipin iradəsini sındıra bilməyib. O, idmandan nəinki uzaqlaşmayıb, əksinə, bütün dünyada əlil idmanının və paralimpiya hərəkatının inkişafına mühüm töhfələr verib. O, məmnunluqla qeyd edib ki, Azərbaycanda paralimpiya hərəkatının inkişafına dövlət tərəfindən böyük diqqət göstərilir. Məhz bunun nəticəsidir ki, azərbaycanlı paralimpiyaçılar beynəlxalq arenada uğurla çıxış edirlər. İdmançıların əldə etdikləri nailiyyətlərlə paralimpiya hərəkatının inkişafına da mühüm töhfələr verirlər.

Eyni sözləri onun tərəf müqabili və Azərbaycan idmanının dostu Entoni Seynsburi haqqında da demək olar. Azərbaycan Milli Paralimpiya Komitəsinin beynəlxalq əlaqələrinin qurulmasında və təbliğində onun xüsusi xidmətləri var. Mütəxəssis hazırda bu missiyanı davam etdirir. O, Azərbaycan Respublikasının Milli Paralimpiya Komitəsinin yaradılmasının 20 illik yubileyi münasibətilə dövlətimizin başçısının 2016-cı il fevralın 2-də imzaladığı Sərəncama əsasən, ölkəmizdə paralimpiya hərəkatının inkişafındakı xidmətlərinə görə Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu ilə təltif edilib.

Entoni Seynsburi dünyada paralimpiya hərəkatının geniş vüsət aldığını, əlil insanların idman vasitəsilə cəmiyyətə inteqrasiyasının vacibliyini qeyd edib.

Tədbirin digər maraqlı qonağı isə BMT-nin Pakistanda qadınlar üzrə xoşməramlı səfiri xanım Muniba Mazari olub. Pakistanın "dəmir ledisi" kimi tanınan Muniba keçirdiyi qəza nəticəsində əlil arabasından istifadə etməyə məcbur olub. Fiziki məhdudiyyətlərini və digər stiqmaları dəf edən Muniba Mazari dünyanın nüfuzlu qadınlarından birinə çevrilib. O, BBC tərəfindən dünyanın 100 güclü qadını, "Forbes" jurnalı tərəfindən isə dünyada 30 yaşından cavan olan 30 nüfuzlu şəxs siyahısında yer alıb.

Muniba Mazari fiziki imkanları məhdud şəxsləri, xüsusilə də qadınları daha güclü olmağa çağırıb. Bildirib ki, əlilliyi olan insanlar cəmiyyətdən təcrid edilməməlidirlər. Onlar özlərinə inanmalı, sahib olduqlarını və əldə etdiklərini digərlərinə ötürməlidirlər.

Adı hər bir Azərbaycan vətəndaşına yaxından tanış olan ikiqat paralimpiya çempionumuz İlham Zəkiyev də tədbirdə yer alan əsas qonaqlardan biri olub. Onun hərbi xidmət zamanı düşmən gülləsinə tuş gəlməsi nəticəsində görmə qabiliyyətini itirməsinə baxmayaraq, həyatda böyük uğurlara nail olması bədii şəkildə səhnələşdirilib. İlham Zəkiyev özü ilə bağlı səhnələşdirilən tamaşada yer alıb.

Dünya cüdosunun tanınmış simalarından olan paralimpiya çempionu Oleq Kretsul da İlham Zəkiyev ilə eyni səhnəni bölüşüb. Oleq Kretsulun bu tədbirdə yer alması təsadüfi deyil. Keçirdiyi avtomobil qəzasından sonra görmə qabiliyyətini itirən Oleq Kretsulun idman karyerası da iki hissəyə ayrılır. 1997-ci ildə keçirdiyi qəzaya qədər cüdo ilə məşğul olan Oleq beynəlxalq arenada çox ciddi uğurlara imza atıb. Qəza və görmə qabiliyyətinin itməsi onu məğlub edə bilməyib və Oleq Kretsul bu dəfə paracüdo idmanında uğurlar qazanıb və paralimpiya çempionluğuna qədər yüksələ bilib.

Tədbirdə ölkəmizdə jestika ilə ilk "vine" çəkən Mahmud Səfərov "Mahmudun dünyası" tamaşasını təqdim edib. Onun çıxışı fiziki məhdudiyyətinə baxmayaraq, uğur qazanan insanlara həsr olunub.

BP-nin Azərbaycanda əlaqələr üzrə meneceri Tamam Bayatlı şirkətin fəaliyyət göstərdiyi ölkələrdə korporativ sosial məsuliyyət dəyərlərinə böyük önəm verdiyini vurğulayıb. Bildirib ki, BP Azərbaycan Milli Olimpiya Komitəsi və Milli Paralimpiya Komitəsinin tərəfdaşıdır.

Azərbaycan Milli Paralimpiya Komitəsinin baş katibi Kamal Məmmədov çıxış edərək deyib: "Xoşbəxtlik əllərdə və ayaqlarda deyil. Əsas odur ki, insanın həyat sevgisi tükənməsin. Çünki məhz sevgi insanları həyata bağlayan və ona uğur qazandıran məfhumdur".

Tədbirin sonunda Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və digər iştirakçılar üzərində "Yenilməzlər"in loqosunun həkk olunduğu tablonu xüsusi zərlərlə rəngləyiblər.

## "European Cadet Circuit" yarışında uğurlu nəticə

Azərbaycan qılıncoynadanı Zərifə Hüseynova Bolqarıstanın paytaxtı Sofiyada keçirilən "European Cadet Circuit" turnirində 14 yaşadək yeniyetmə sablyaçı qızların şəxsi yarışında gümüş medala sahib olub.

Qrup mərhələsində bütün rəqiblərini məğlub edən Z.Hüseynova 6 qələbə qazanaraq otuzikidəbir finala vəsiqəni təmin edib. Bu mərhələdə Bolqarıstan təmsilçisi Maya Antonovanı 15:2 hesabı ilə məğlub edən idmançımız növbəti mərhələdə Türkiyə idmançısı Ayşe Naz üzərində 15:6 hesablı qələbə qazanıb. Səkkizdəbir finalda türkiyəli digər sablyaçı Nehir Yıldırıma 15:2 hesabı ilə qalib gələn təmsilçimiz 1/4 finalda Yunanıstan təmsilçisi Danai Pigi ilə görüşü də qələbə (15:4) ilə başa vurub. Yarımfinalda bolqarıstanlı Kalina Atanasovaya 15:11 hesabı ilə qalib gələn Z.Hüseynova gərgin idman mübarizəsi şəraitində keçən final qarşılaşmasında macarıstanlı Emese Domonkosa 12:15 hesabı ilə uduzub. Beləliklə, turniri ikinci sırada başa vuran Z.Hüseynova gümüş medal, diplom və hədiyyə ilə mükafatlandırılıb.

Sablyaçımızın məşqçisi Cahangir Səfərov da turnirin xatirə medalına layiq görülüb.

— İdman veteranları —



# Azərbaycan futbolunun 79 yaşlı canlı əfsanəsi



Noyabrın 13-də "Neftçi"nin canlı əfsanəsi Kazbek Tuayevin 79 yaşı tamam oldu.

Kazbek Əlirza oğlu Tuayev 1940-cı il noyabrın 13-də Ələt qəsəbəsində anadan olub. SSRİ idman ustası futbolçu karyerası ərzində bir sıra klublarda çıxış edib. O, "Lokomotiv" (Bakı, 1954-1959), "Spartak" (Nalçik, 1959-1960), "Neftçi" (Bakı, 1961-1970), "Spartak" (Orconikidze, 1970), "Neftçi" (Bakı, 1971-1972) komandalarının şərəfini qoruyub. 1966-cı il SSRİ çempionatının bürünc mükafatçısı 1961-1971-ci illər ərzində "Neftçi"nin heyətində 298 oyun keçirib, 60 qol vurub.

Göstərdiyi uğurlu çıxışlarına görə SSRİ milli komandasının heyətində 4 oyunda yığmanın formasını geyinib.

Kazbek Tuayevin məşqçi karyerası da uğurlu olub. Belə ki, tanınmış mütəxəssis "Spartak" (Orconikidze, 1973-1977), "Xəzər" (Lənkəran, 1978-1982), "Neftçi" (Bakı, 1983-1984), "Afriken" (Tunis, 1987-1990), "Tərəqqi" (Bakı, 1992), "Azneftyağ" (1993), "Turan" (Tovuz, 1993-1995), "Neftçi" (Bakı, 2004) klublarında və Azərbaycan milli komandasında (1995-1997, 2002) baş məşqçi vəzifəsində işləyib.

1983-1984, 1991, 1996-1997, 1998, 2001-2004-cü illərdə "Neftçi"nin baş məşqçisi olmuş Kazbek Tuayev 1996/1997 və 2003/2004 mövsümlərində komandaya ölkə çempionluğunu qazandırıb.

1996-cı ildə "Neftçi" məhz onun baş məşqçi olduğu dövrdə Avrokuboklarda ilk qələbəsini qazanıb. Ölkə çempionu Sofiya "Lokomotiv"inə qalib gəlib - 2:1. Elə həmin il Tuayevin baş məşqçisi olduğu milli komanda İsveçrə yığmasını 1:0 hesabı ilə məğlubiyyətə uğradaraq, rəsmi oyunlarda ilk qalibiyyətini əldə edib.

Futbolda göstərdiyi xidmətlərə görə 2000-ci ildə "Şöhrət" ordeni ilə təltif olunub.

Azərbaycan Futbol Məşqçiləri İttifaqının sədri, AFFA-nın İcraiyyə Komitəsinin üzvüdür.

# Azərbaycanda idmanın inkişafı yüksək qiymətləndirilib

Azərbaycanda idmanın inkişafına dövlət tərəfindən yüksək diqqət və qayğı göstərilir.

Bu fikirlər Avropa Savat Konfederasiyasının prezidenti Rodolf Rodom və Beynəlxalq və Fransa Savat Federasiyalarının prezidenti Joel Dumezlə Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti, Azərbaycan Ədalətli Oyunlar Komissiyasının sədri Xəzər İsayevin görüşündə ifadə olunub.

Azərbaycan Savat Federasiyasının dəvəti ilə Azərbaycana səfər edən qonaqlar noyabrın 14-də Fəxri xiyabanda xalqımızın ümummilli lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə gül dəstələri qoyublar.

Görkəmli oftalmoloqalim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı önünə tər güllər düzülüb.



Sonra tədbir iştirakçıları Şəhidlər xiyabanına gedərək Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad edib, məzarları üzərinə gül dəstələri qoyublar. Görüş zamanı qonaqlar Azərbaycanın idman sahəsində böyük inkişaf yolu keçdiyini, ölkəmizin dünyada beynəlxalq yarışların yüksək səviyyəli təşkilatçısı kimi tanındığını vurğulayıblar. Qeyd olunub ki, dünyada getdikcə böyük populyarlıq qazanan savat idman növünün Azərbaycanda daha da inkişaf etdirilməsi istiqamətində federasiya ilə əməkdaşlıq bundan sonra da uğurla davam etdiriləcək.

Azərbaycanda idmana dövlət səviyyəsində göstərilən diqqət və qayğıdan söz açan MOK-un vitse-prezidenti Xəzər İsayev ölkə idmanının inkişaf etdiyini, atletlərimizin ən mötəbər yarışlarda nailiyyətlər qazandıqlarını diqqətə çatdırıb. AzƏOK-un sədri ölkəmizdə ədalətli oyunlar sahəsində görülən işlər barədə federasiya rəsmilərinə məlumat verib. O, qeyd edib ki, Ədalətli Oyunlar Hərəkatı sülh və həmrəylik rəmzi hesab olunmaqla yanaşı, dünya xalqları arasında daha sıx əlaqələrin qurulmasına mühüm töhfə verir. Qonaqlar Azərbaycana səfərlərindən məmnunluğunu ifadə edib, qarşılıqlı əməkdaşlığın bundan sonra da davam etdiriləcəyinə inandığını bildiriblər. Görüş zamanı nümayəndələrə MOK-un vitse-prezidenti Xəzər İsayevin müəllifi olduğu "Olimpiya tarixi, idman siyasəti" və "Azərbaycanda Ədalətli Oyunlar-20 il" kitabları xatirə olaraq təqdim edilib.

# Cüdoçularımız Avropa kubokunda ümidləri doğrultdular

Cadet European Judo Cup Győr

Macarıstanda keçirilən cüdo üzrə yeniyetmələr arasında Avropa kuboku turnirinə yekun vurulub. 31 ölkədən 500-dən çox cüdoçunun mübarizə apardığı yarışda Azərbaycan 7 idmançı ilə təmsil olunub. Yarışların birinci günündə cüdoçularımızdan Nurlan Kərimli qızıl, Hüseyn Allahyarov (hər ikisi 50 kiloqram) və Aydın Rzayev (60 kiloqram) bürünc medal əldə ediblər. Qitə turnirinin ikinci günündə təmsilçilərimiz daha bir medal qazanıblar.

Ölkəmizi yarışda 81 kq çəki dərəcəsində təmsil edən Əlirza Şıxəlizadə finala qədər uğurla irəliləsə də, həlledici mərhələdə Fransa təmsilçisi Aleksandre Tamaya məğlub olaraq gümüş medalla kifayətlənib.

# "Koreya səfiri" kuboku 3 medalla yadda qalıb

Koreyanın Muju şəhərində taekvondo üzrə "Koreya səfiri" kuboku yarışı keçirilib. Hər il Koreyanın müxtəlif ölkələrdəki səfirlikləri taekvondo üzrə yarışlar təşkil edir. Bu il keçirilən yarışların qalibləri arasında isə ilk dəfə dünya birinciliyi keçirilib.

Respublikamızda da artıq bir neçə ildir "Koreya səfiri" kuboku yarışları təşkil olunur.




Builki turnirdən seçilən üç idmançımız ölkəmizi dünya birinciliyində təmsil edib və hər üçü mükafatçılar sırasında yer alıb.

Koreya Respublikasının Azərbaycandakı səfirliyinin dəstəyi ilə yarışa qatılan Məmməd Abdullayevin yetirmələrindən Səyyad Dadaşov (51 kq) və Yaşar Məmmədli (63 kq) qızıl medal qazanaraq fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Digər idmançımız Riyad Şirəliyev (55 kq) isə dünya birinciliyinin bürünc medalına sahib olub.

— Yubiley —

# Tanınmış mütəxəssisin 75 yaşı tamam oldu

Səmayə Əjdər qızı Əliyeva 1944-cü il noyabrın 8-də Bakı şəhərində anadan olub. 1952-ci ildə keçmiş Oktyabr (indiki Yasamal) rayonunda yerləşən 14 saylı orta məktəbdə 8-ci sinifə qədər oxuyub. Ailə vəziyyətinin ağır olması səbəbi ilə əlaqədar Yasamal rayonu 10 saylı fəhlə və gənclər axşam məktəbini bitirib.

1968-73-cü illərdə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunda ali təhsil alıb.

Müxtəlif illərdə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində müəllim, baş müəllim və dosent vəzifələrində çalışıb.



S.Əliyeva 1957-ci ildən Uşaq Gənclər Gimnastika Məktəbində akrobatika idman növü ilə məşğul olub. O, bu idman növünün incəliklərinə ilk məşqçisi Ağalı Həşimovun sayəsində yiyələnib. Sonralar isə Azərbaycan Respublikasının Əməkdar məşqçisi Bəhram Nərimanovun rəhbərliyi altında məşqlərini davam etdirib.

Akrobatika idman növündə Bakı və Azərbaycan birinciliklərində, həmçinin müxtəlif yarışlarda mükafatalayiq nəticələr qazanıb.

1965-1967-ci illərdə Bakı Dövlət Sirkində akrobat-artist kimi fəaliyyət göstərib. 1971-ci ildə Moskvada keçirilən SSRİ Xalqlarının V Spartakiadasının təntənəli açılışında və 1980-ci ildə Azərbaycanda Sovet Hakimiyyətinin 60 illik yubileyinə həsr olunmuş bədii idman tamaşasında fəal iştirak etdiyinə görə fəxri diplomla təltif olunub.

O, 1998-ci ildə Azərbaycan Respublikasının Fəxri Bədən Tərbiyəsi və İdman İşçisi adına layiq görülüb. 2013-cü ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin 90 illik yubileyi ilə əlaqədar "Tərəqqi" medalı ilə təltif olunub.

2004-cü ildən Azərbaycan Respublikasının əmək veteranıdır və 2008-ci ildən Azərbaycan Gimnastika Federasiyası veteranlar şurasının üzvüdür.

Azərbaycan Gimnastika Federasiyası və Veteranlar Şurası Səmayə Əliyevanı 75 illik yubileyi münasibəti ilə səmimi qəlbdən təbrik edir, ona sağlam və uzun ömür arzulayır.

# Azərbaycan karateçiləri Belçikada 2 medal qazanıblar

Azərbaycan karateçiləri Belçikanın Lyej şəhərində keçirilən beynəlxalq turnirdə 2 medal qazanıblar. Azərbaycan Karate Federasiyasından verilən məlumata görə, təmsilçilərimiz Suada Kərimova (16-17 yaşlı gənclər, kumite 47 kq) və Neda Rezai (böyüklər, kata) bürünc mükafata sahib olublar. Beynəlxalq hakimlər Cahangir Babayev və Vüqar Kərimov dəvətə əsasən, turniri idarə edən hakimlər arasında olublar.

Belçikada müxtəlif yaşlı karateçilər arasında təşkil edilən bu yarışda 25 ölkədən 1125 idmançı iştirak edib.

* * *

Azərbaycan milli komandasının üzvü İrina Zaretska çıxış etdiyi fransız klubunun heyətində növbəti dəfə ölkə kubokuna sahib olub. Karateçimiz komanda yarışlarında Fransa çempionu olub.

İ.Zaretska noyabrın sonu, dekabrın əvvəli Karate 1 Premyer Liqasının Madriddə son mərhələsində digər idmançılarımızla birgə çıxış edəcək.



# Dünya çempionatında uğurlu çıxış

Azərbaycan idmançıları Tbilisidə keçirilən ciu-citsu üzrə dünya çempionatında 20 medal qazanıblar. Çempionatda ölkəmizi 21 idmançı təmsil edib. Azərbaycan komandası ilk dəfə iştirak etdiyi çempionatda 8 qızıl, 8 gümüş, 4 bürünc medala yiyələnib.

Yarışda Kənan Abbaszadə, Zaur Mirzəzadə, Jasmin Xəlilova, Anar Tağızadə, Bəxtiyar Məcidov, Ağahüseyn Atakişiyev, Rəsul Süleymanov və İnsaf Əliyev bütün rəqiblərini məğlub edərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Əli Əliyev, Şəmsi Hüseynov, Nihat Hüseynli, Sadiq Əliyev, Kənan Abbaszadə, Ağahüseyn Atakişiyev, Həsən Hüseynzadə və Fərid Əhmədov isə finalda məğlub olaraq gümüş medalla kifayətləniblər. Digər üç idmançımız Fərid Əhmədov, Ayaz Abbasov hər biri bir bürünc, Mirzə Məmmədov isə həm kontakt ciu-citsu və nevaza növündə iki bürünc medal qazanıb.

Çempionatın nəticələrinə görə Azərbaycan komandası ümumi hesabda dördüncü yeri tutub.

Dünya çempionatında 20-dək ölkədən 200 idmançı kontakt ciu-citsu, nevaza və özünümüdafiə bölmələri üzrə mübarizə aparıb.

# İdmançılarımız Apennin yarımadasında da fərqləndilər

Azərbaycan Budo Döyüş Növləri Federasiyasının komandası Milanda keçirilən dünya çempionatında dörd medal qazanıb. Ölkəmizi mundialda səkkiz idmançı təmsil edib. Yarışda 71 kiloqram çəki dərəcəsində çıxış edən İbrahim Məmmədov K-1 növündə bütün rəqiblərini məğlub edərək qızıl kəmər qazanıb. Bu versiya üzrə mübarizə aparan Xəyal Cəmilbəyli (80 kq) və Fərqanə Saxrayeva (58 kq) hər ikisi finalda uduzaraq gümüş medalla kifayətləniblər. Fariz Nəbiyev (88 kq) isə bürünc medala sahib olub.

İdmançılarımız çempionatda 10-cu dan qara kəmər sahibi Faiq Rəfiyevin rəhbərliyi ilə iştirak edib.

Dünya çempionatında 40 ölkədən 532 idmançı mübarizə aparıb.

# Tələskənliyin qurbanı, gecikən uğurların qəhrəmanı

***Beynəlxalq yarışlardan birində aldığı zədəyə görə o, idman karyerasını çox gənc yaşda başa çatdırıb. Amma həmin vaxtadək Olimpiya Oyunlarının da iştirakçısı olmuşdu. Hətta qitə və dünya çempionatlarının bürünc mükafatçısı idi. İndi isə cüdo ictimaiyyəti onu veteranlar arasında üçqat dünya çempionu kimi tanıyır. Ona təkcə əldə etdiyi titullara görə deyil, həm də yüksək insani keyfiyyətlərinə görə də hörmət edirlər. Bu ad və hörməti qazanmaq isə hər adama nəsib olmur. Xüsusilə, yüksək insani keyfiyyətləri vurğulamaq yerinə düşər. Çünki hər bir titulu və fəxri adı istənilən yaşda əldə etmək olur. Lakin mənəvi zənginlik və hörmət hər yaşda asan qazanılmır. Haqqında danışdığımız idmançı Rəsul Səlimovdur. Bu yaxınlarda usta cüdoçular arasında Mərakeşdə keçirilən dünya çempionatının qalibi Rəsul Səlimovdan bəhs edən yazını oxucularımıza təqdim edirik.***



Rəsul Alik oğlu Səlimov 1981-ci il dekabrın 26-da Bakı şəhərində anadan olub. Əslən dağıstanlı olan atası Alik Səlimov 25 ilə yaxın Bakı şəhərində yerləşən 61 saylı tam orta məktəbdə idman müəllimi işləyib. Qeyd edək ki, Alik Səlimov voleybol üzrə idman ustasıdır. Anası Naibə Səlimova isə ixtisasca həkim olub.

İdmana böyük maraq göstərən Rəsul 7 yaşında cüdo ilə məşğul olmağa başlayıb. Onun bu idman növünə maraq göstərməsinin əsas səbəbi ilk növbədə atası, daha sonra isə cüdo üzrə məşqçi Adil Əliyev olub.



Belə ki, Alik Səlimov özü voleybolçu olmasına baxmayaraq, güləşə də böyük həvəsi var idi. Məhz buna görə də o, oğlanları Rəsul və Nurəddini sərbəst güləşçi kimi görmək istəyirdi. Günlərin birində 61 saylı orta məktəbə cüdo klubundan məşqçi Adil Əliyev gəlir. A.Əliyev məktəbdə oxuyan istedadlı uşaqları toplayaraq, cüdo bölməsinə dəvət edir.

Beləcə, Rəsul Səlimov 7 yaşından cüdoda ilk addımlarını atmağa başlayır. Bu idman növünün sirlərini A.Əliyevdən öyrənən Rəsul, 6 ildən sonra məşqlərini İbadulla Şabanovun rəhbərliyi altında davam etdirir.

## “Rəqibimin məndən üstün olduğunu görüb, fəndə əl atdım”

Böyük istedada malik olan Rəsulun cüdoya olan həvəsi, tezliklə böyük uğurlara yol açır. O, qısa zaman ərzində ümidləri doğruldaraq ölkədaxili yarışların və beynəlxalq turnirlərin qalibi və mükafatçısı olur. Artıq onun qarşısında demək olar ki, uğura aparan işıqlı bir yol var idi. 1997-ci ildə yeniyetmələr arasında Avropa birinciliyində bürünc medal qazanan Rəsul 1 ildən sonra Moskvada ilk dəfə olaraq keçirilən Yeniyetmələrin Olimpiya Oyunlarında qızıl medala layiq görüldü. R.Səlimov yeniyetməlik illərində əldə etdiyi möhtəşəm qələbəni hələ də xatırladığını bildirir: “Moskvada keçirilən Yeniyetmələrin Olimpiya Oyunları bizim üçün böyük təcrübə oldu. Bu yarışın iştirakçıları sonralar böyüklər arasında keçirilən Olimpiya Oyunlarında da yer tutmuşdular. Moskvadakı Oyunlarda beş görüş keçirdim. Ən yaddaqalan görüşüm 1/4 finalda fransalı idmançıya qarşı oldu. Bu görüşdə məğlub olduğum halda son dəqiqədə fənd işlədərək qələbə qazandım. İtaliya idmançısı ilə keçən yarımfinal mübarizəsi də mənim üçün yaddaqalan oldu. Demək olar ki, hadisələr eyni ssenari ilə gedirdi. Rəqibimin məndən fiziki cəhətdən üstün olduğunu görüb, fəndə əl atdım. Bildiyiniz kimi, hər bir idmançının sevimli fəndi var. Rəqibimin də hansı fəndi daha çox sevdiyini bilirdim. Ona görə də özümü yorğun göstərərək, həmin fəndi tətbiq etməsinə şərait yaratdım. İtaliyalı idmançı həmin fəndi icra etmək istəyəndə onu əks fəndlə məğlub etdim. Final görüşüm isə braziliyalı idmançı ilə oldu. Bu görüşdə rahatlıqla rəqibimə qalib gələrək qızıl medala layiq görüldüm. Bu yarış demək olar ki, mənim üçün böyük idmana gedən yolda bir təkan idi. Həmin vaxtları indi də sevinclə xatırlayıram”.

Ardıcıl nailiyyətlər qazanan Rəsul 1999-cu ildə Slovakiyanın paytaxtı Bratislavada, 1 il sonra isə Polşanın Vrotslav şəhərində keçirilən Avropa çempionatında bürünc medala sahib çıxır. 2001-ci ildə isə o, Fransanın paytaxtı Parisdə yenidən qitə çempionatının bürünc medalına layiq görülür. Elə həmin ildə də Almaniyanın Münhen şəhərində keçirilən dünya çempionatında fəxri kürsünün üçüncü pilləsində yer alır.

Getdikcə parlamağa başlayan gənc cüdoçu bundan başqa hərbçilər arasında keçirilən yarışlarda da mükafatalayiq yerlər tutur. 1999-cu ildə Xorvatiyanın paytaxtı Zaqrebdə təşkil olunan Hərbçilərin Ümumdünya Oyunlarında bürünc medal qazanır. 2000-ci ildə isə o, qardaşı ilə birgə, Niderlandda keçirilən hərbçilərin dünya çempionatında mübarizə aparır. Qardaşı Nurəddin 90 kq çəkidə bürünc medala sahib çıxır. Budəfəki yarışda gücünü 100 kq çəki dərəcəsində sınayan Rəsul Səlimov isə finala qədər inamla irəliləyir. Lakin zədəli olduğu üçün final görüşündə iştirak edə bilmir və gümüş medala layiq görülür.

Gənc yaşlarında yığma komandada özünü qazandığı nailiyyətlərlə təsdiqləyən Rəsul Sidney-2000 Yay Olimpiya Oyunlarında iştirak etmək hüququ qazanır. 20 yaşında 4 illiyin zirvə yarışında iştirak edən idmançı bürünc medal uğrunda görüşdə məğlub olaraq beşinci yerlə kifayətlənir. Medalın bir addımlığında məğlub olan Rəsul həmin anları belə xatırlayır: “Olimpiya Oyunlarında iştirak etmək və qalib olmaq hər bir idmançının ən böyük arzusudur. Sidneydə keçirilən XXVII Olimpiya Oyunlarında iştirak edəndə 20 yaşım var idi. Bu Oyunlara lisenziya qazanmaq üçün 6 turnirdə iştirak etmişdim. Olimpiadada 6 görüş keçirdim. İlk mərhələdə kanadalı idmançıya məğlub olsam da, sonra ardıcıl olaraq 4 görüşdə qalib gəldim. Bürünc medal uğrunda keçirdiyim həlledici qarşılaşmada isə fransalı cüdoçuya məğlub oldum. Məğlubiyyətimi yorğunluqla ələqələndirirəm. Çünki bundan əvvəl ABŞ idmançısı ilə gərgin görüş keçirmişdim. Həmin mübarizədə hakimlərin yanlış qərarına görə icra etdiyim fənd qeydə alınmadı. Halbuki, həmin fənd qeydə alınsaydı, mən görüşün elə birinci dəqiqəsində qalib elan olunacaqdım. Beləliklə, görüş uzandı və biz beş dəqiqəyə kimi mübarizə aparmalı olduq. Lakin hakimlər sonda qələbəni mənə verdilər. Bu görüşdə, həqiqətən də, çox yorulmuşdum. Elə bu səbəbdən həlledici qarşılaşmaya yorğun çıxdım. Bundan başqa, yarış Avstraliyada keçirildiyi üçün saat fərqi də öz təsirini göstərirdi. Çünki tam olaraq uyğunlaşa bilməmişdim. Üçüncü yer uğrunda görüşdə Milli Olimpiya Komitəsinin prezidenti cənab İlham Əliyev və xanımı Mehriban Əliyeva da, arenada idilər. Təəssüf ki, həmin görüşdə məğlub oldum və beşinci yerlə kifayətləndim. Görünür, qismət belə imiş. Həmin məğlubiyyət bu günə qədər mənim yadımdadır. Bu görüşü heç vaxt unutmayacağam”.




## “Bakıya qayıdandan sonra gördüm ki, artıq güləşə bilmirəm”

Düzdür, Sidney Olimpiya Oyunlarında Rəsulun 20 yaşı olduğunu nəzərə alsaq, onun hazırlıq səviyyəsi və stabil çıxışı növbəti olimpiadalarda medal qazanacağına əminlik yaradırdı. Artıq hər kəs, Rəsulu nəinki, Avropada, hətta dünyada ciddi rəqib kimi qəbul edir, ondan çəkinirdi. Təəssüf ki, karyerasının ən pik vaxtlarında, 2001-ci ildə İtaliyada hərbçilər arasında keçirilən dünya çempionatında çiynindən aldığı zədə demək olar ki, onun idman karyerasını erkən başa vurması ilə nəticələndi. Qəhrəmanımız həmin anları xatırlayaraq deyir: “Bürünc medal uğrunda qarşılaşmaya çıxacaqdım. Lakin karyeramda ilk dəfə idi ki, belə bir həlledici görüşə çox həvəssiz yanaşırdım. “Beynimdə mən nə edirəm”?, “Necə qələbə qazanacağam”? deyə, qəribə suallar dolaşırdı. Görüş vaxtı rəqib qolumu dartdı, həmin vaxtı çiynimdə narahatlıq hiss etdim. Çətinliklə də olsa, görüşü başa vurdum. Məğlub olaraq beşinci yerlə kifayətləndim. Əvvəllər zədənin ciddiliyinə o qədər də əhəmiyyət vermədim. Düşündüm ki, tezliklə keçər. Bakıya qayıdandan sonra gördüm ki, artıq güləşə bilmirəm. Bir müddətdən sonra zədəli halda iştirak etdiyim bir turnirdə qalib gəldim. 2002-ci ildə Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti cənab İlham Əliyev zədəli olduğumu biləndə məni qəbul etdi, diqqət və qayğısını məndən əsirgəmədi. Moskvada əməliyyat olunmağım üçün köməklik etdi. İki ildən sonra isə yenidən əməliyyat olunmağım üçün Almaniyaya yollanmağıma şərait yaratdı. Bəlkə də, əməliyyatdan sonra məşqlərə tez başladığıma görə zədəm tam bərpa olunmadı. 2004-cü ildə Afinada XXVIII Yay Olimpiya Oyunları keçiriləcəkdi. Çox istəyirdim ki, həmin Oyunlarda iştirak edərək medal kolleksiyama Olimpiya medalını əlavə edim. Hətta həmin vaxtlarda yerli mediada tez-tez yazırdılar ki, Rəsul Səlimov qayıdır. Lakin alınmadı. Zədə səbəbinə görə karyeramı çox erkən - 23 yaşımda başa vurdum”.

Rəsul Səlimov karyerasını başa vurduğu illərdə ona ən böyük mənəvi dəstəyi qardaşı Nurəddin Səlimov verdi. Qeyd edək ki, Rəsuldan bir yaş kiçik olan Nurəddin də vaxtilə cüdo ilə məşğul olub. Dəfələrlə respublika yarışlarının, həmçinin beynəlxalq turnirlərin qalib və mükafatçısı olan Nurəddin yeniyetmələr arasında bürünc medal qazanmaqla yanaşı, hərbçilərin dünya çempionatının da qızıl medalçısıdır. Qeyd edək ki, böyüklərin yarışında onlar eyni çəki dərəcəsində, 90 kq-da çıxış edirdilər. Həmin vaxtlarda yuxarı çəkilərdə güclü idmançılar az olduğu üçün Rəsul və Nurəddin sparinq-tərəfdaş kimi bir-biri ilə güləşir, bütün yarışlara da elə bir yerdə hazırlaşırdılar.

Hər zaman bir yerdə olan Nurəddin və Rəsul qardaşları artıq bu zədədən sonra sanki idmandan küsmüşdülər. Qardaşının üzləşdiyi uğursuzluğa görə ruhdan düşən Nurəddin də tezliklə karyerasını bitirməyə qərar verir. Beləliklə, Səlimovlar ailəsinin iki üzvü, demək olar ki, məhz eyni vaxtda, karyeralarının ən gözəl çağında peşəkar idmanla vidalaşır.

Peşəkar idman karyerasını erkən bitirən Rəsul bir də 2011-ci ildə tatamiyə qayıdır. Lakin bu dəfə veteran idmançı kimi... Azərbaycan Cüdo Veteranları Assosiasiyasının Prezidenti, “Cüdo Klub 2012” İctimayi Birliyinin sədri, dəfələrlə veteranlar arasında dünya və Avropa çempionatlarının qalibi və mükafatçısı Azər Əsgərovun dəstəyi və səyi nəticəsində özünə yenidən inanan Rəsulun usta cüdoçuların yarışında ilk sınağı Almaniyanın Frankfurt şəhərində keçirilən dünya çempionatına təsadüf edir. Bu yarışda birinci olan Rəsul, elə həmin ildə Avstriyada təşkil olunan Avropa çempionatının da qalibi adını qazanır. O, növbəti il Mayamidə dünya ikincisi, 2013-cü ildə isə anoloji yarışın qalibi olur. 6 illik fasilədən sonra bu yaxınlarda yenidən veteranların yarışında qızıl medala layiq görülməklə üçüncü çempionluğunu qazanır. Rəsul bu dəfə həmin nailiyyəti Mərakeşdə təşkil olunan usta cüdoçular arasında M-2 kateqoriyası üzrə 90 kq çəki dərəcəsində əldə edir. Gənclik illərində mühüm yarışlarda əsasən qazandığı uğurlar medallarla yadda qalan Rəsul artıq usta cüdoçular arasında üçqat dünya çempionudur.

Qazandığı uğurlara baxmayaraq, Rəsul Səlimov həm də təvazökar insandır. Onun haqda mətbuatda, demək olar, az sayda informasiyaya rast gəlmək olar. Bəlkə də, elə buna görədir ki, bu gün gənc nəslin nümayəndələri qəhrəmanımızı o qədər də yaxından tanımır. Amma bilməyənlər üçün qeyd edək ki, Rəsul bir vaxtlar Pekin-2008 Yay Olimpiya Oyunlarının bürünc mükafatçısı Mövlud Mirəliyevlə eyni çəki dərəcəsində bir komandanın idman şərəfini qoruyub. Düzü, hazırlıq səviyyəsinə görə Mövluddan geri qalmırdı. Hətta onu bir neçə yarışda üstələmişdi. Kim bilir zədə olmasa idi, bəlkə, o da Mövlud Mirəliyev kimi, bir gün Olimpiya mükafatçısı olacaqdı. Lakin alınmadı. Qismət olmadı...

Rəsul Səlimov hazırda Dövlət Gömrük Komitəsinin Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin inspektoru vəzifəsində çalışır. 2002-ci ildən Gömrük orqanında fəaliyyət göstərən Rəsul, çiynində mayor rütbəsini daşıyır.

Rəsul Səlimov ailəlidir, 2 oğlan və 3 qız atasıdır. Peşəkar idmanın böyük çətinliklərini görən veteran cüdoçu övladlarının da onun taleyini yaşamasından qorxur. Lakin hazırda qəhrəmanımızın ən böyük arzularından biri oğlanları Osman və ya Ömərin onun yolunu davam etdirərək, yarımçıq qalan arzularını gerçəkləşdirməsi və ən əsası Olimpiya zirvəsini fəth etməsidir. Bu, təkcə onun deyil, həm də atası Alik Səlimovun ən böyük arzusudur. Biz də öz növbəmizdə inanırıq ki, həmin hadisə bir gün gerçəkləşəcək. Övladları gələcəkdə atasının əldə edə bilmədiyi uğurları qazanaraq, Rəsul Səlimovun yarımçıq qalan arzularını tamamlayacaqlar.

*Azər Əlizadə*

Sorğu

*Ali məktəb tələbələrinin təhsillə bərabər idman sahəsində uğurları gündən-günə artır. Bu da ölkəmizdə idmana və Olimpiya Hərəkatına olan böyük maraqdan irəli gəlir. Elə bu məqsədlə ali məktəb tələbələri arasında keçirdiyimiz növbəti sorğuda respondentlərimizə aşağıdakı suallarla müraciət etdik. Sorğuda iştirak edən tələbələrin ünvanlanan suallara maraqlı cavabları diqqəti çəkdi.*

# İdman və təhsil bir-biri ilə vəhdət təşkil etməlidir

*- Necə düşünürsünüz, təhsillə idman vəhdət təşkil edirmi?*
**- Siz özünüz idmanla maraqlanırsınızmı?**
*- İdman növləri arasında daha çox hansına üstünlük verirsiniz?*
**- Ölkəmizdə keçirilən hansı beynəlxalq idman tədbirləri haqqında məlumatlısınız?**

***Tünzalə Nərimanova (BDU, II kurs):***

- İdmanla təhsil bir-biri ilə vəhdət təşkil etsə də, bəzi hallarda bu insan fəaliyyətinə təsirsiz ötüşmür. Hərdən elə olur ki, məşqlərə vaxt ayıran tələbənin və yaxud şagirdin dərslərə vaxtı qalmır. Lakin burada balans yaratmaq mümkündür. Təhsillə idmanı paralel idarə edən tələbələr də var. Mən özüm də idmanla maraqlanıram.



Bir vaxtlar futbolçu olmaq istəyirdim. Futbol matçlarını da yaxından izləyirəm. "Qarabağ" və Madrid "Real"ının matçlarını izləyirəm. İdman sahəsində bir sıra tədbirlərin iştirakçısı olmuşam. Belə ki, 2015-ci ildə ölkəmizdə keçirilən I Avropa Oyunları, 2017-ci ildə keçirilən IV İslam Həmrəyliyi Oyunlarında könüllü qismində iştirak etmişəm. Qarşıda daha bir mötəbər yarış bizi gözləyir. 2020-ci ildə UEFA-nın futbol üzrə çempionatının 4 qarşılaşması paytaxtımızda keçiriləcək. Artıq könüllü kimi həmin matçlarda iştirak üçün müraciətim qəbul olunub. Hesab edirəm ki, bu işdə də təcrübəmi artıracağam.

***Yunis Bəyzadə (BDU, II kurs):***

- Düşünürəm ki, hər birimiz idmanla təhsili qarşılıqlı inkişaf etdirə bilərik. Lakin əsas təhsilə üstünlük verməliyik. Zehni yorğunluğu aradan qaldırmaq və asudə vaxtı səmərəli keçirmək üçün idman ən yaxşı vasitədir. Mən daha çox futbolla maraqlanıram. "Qarabağ"a azarkeşlik edirəm. Digər idman növlərindən də xəbərim var. Voleybol və tennis qarşılaşmaları da diqqətimi çəkir.



Ölkəmizdə keçirilən I Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları və Formula 1 yarışları haqda məlumatlıyam. Ötən il UEFA Avropa liqasının final görüşü Bakıda təşkil olundu. Hesab edirəm ki, Azərbaycan bu və digər idman tədbirləri üçün ən etibarlı ölkədir. O ki qaldı gələn il hansı yarışın Bakıda keçirilməsinə, bildiyimə görə Formula 1 Azərbaycan Qran-prisi və futbol üzrə Avropa çempionatının dörd matçı minlərlə azarkeşi paytaxtımıza toplayacaq.

***Ləman Quliyeva (BDU, II kurs):***

- Fikrimcə, təhsillə idman bir-birini tamamlayır. Sağlam bədəndə sağlam ruh olar. İdman insan sağlamlığına birbaşa təsir edir. Orqanizmi sağlam insanın düşüncələri də saf olmalıdır.

İdmanla yaxından maraqlanır, əksər növlərini izləyirəm. Voleybol, futbol, üzgüçülük və gimnastika yarışlarına həvəslə tamaşa edirəm.



İdman yarışlarını izləmək, hətta idmanın bir parçası olmaq insana müsbət enerji bəxş edir.

Ölkəmiz beynəlxalq yarışların ən layiqli və etibarlı tərəfdaşıdır.

I Avropa Oyunları və IV İslam Həmrəyliyi Oyunları ilə yanaşı Formula 1 yarışları Azərbaycanın beynəlxalq aləmdə böyük nüfuzundan xəbər verir. Bu ənənələr davam edir. Növbəti il Bakı futbol üzrə Avropa çempionatının final mərhələsinin 4 mühüm matçına ev sahibliyi edəcək. Çox istərdim ki, həmin yarışları azarkeş kimi birbaşa arenalardan izləyim.

***Elmin Alışov (BDU, II kurs):***

- Məncə təhsil və idman ayrıca bir fəaliyyət sahəsidir. Necə deyərlər, ayrı-ayrı anlayışlardır. Təhsillə idmanın hər biri arasında seçim edərkən, daha əlverişlisinə üstünlük verilməlidir.

Lakin hər iki sahə ilə məşğul olmağa can atanlar da az deyil. İnsan yalnız bir işdə daha peşəkar ola bilər. İdmanla məşğul olmaq çox böyük məsuliyyət tələb edir.



İdmanla azarkeş kimi maraqlanıram. Futbola böyük həvəsim var. Daha çox Avropa aparıcı futbol çempionatlarını izləyirəm.

Ölkəmizdə I Avropa Oyunları və IV İslam Həmrəyliyi Oyunları yüksək səviyyədə keçirildi. Bununla biz bütün dünyaya səs saldıq.

Gələn il ölkəmizdə Avro-2020-nin bir neçə matçları keçiriləcək. Bu, Azərbaycan idmanının və futbolunun təntənəsidir. Fikrimcə, futbolumuzun inkişafına bu hadisə böyük təkan verəcək.

***Arzu Rövşən (BDU, II kurs):***

- İndiki dövrdə tələbələrin çoxu idmanla hobbi kimi məşğul olurlar. Təhsil isə vacib şərtdir. İdman növləri arasında daha çox futbolla maraqlanıram. İspaniya çempionatında Madrid "Real"ının və "Barselona" nın oyunlarını izləyirəm.



I Avropa Oyunları və IV İslam Həmrəyliyi Oyunları, Formula 1 yarışlarını televiziya vasitəsilə izləmişəm. Həmin tədbirlərin keçirilməsində ölkəmiz bütün imkanlarını səfərbər etmiş oldu. Nəticədə Azərbaycan dünyada aparıcı idman ölkələrindən biri olduğunu sübut etdi. Hesab edirəm ki, gələn il futbol üzrə Avropa çempionatına ev sahibliyi edən 12 şəhər arasında Bakının adı qürurla çəkiləcək.

***Şakir Tağıyev (AZMİU, III kurs):***

- Təhsil və idman hər birimiz üçün vacibdir. Təhsilli insanlar cəmiyyətimiz üçün gərəklidir. Sağlam olmaq üçün isə idmandan gözəl məşğuliyyət yoxdur. Günün nizamını qurub, hər iki sahə ilə məşğul olmaq mümkündür.



Mən futbol və karate ilə məşğul oluram. Artıq 10 ilə yaxındır idmandayam. Bir sıra yarışlarda iştirak etmişəm.

Yarışlardan söz düşmüşkən, beynəlxalq aləmdə idman ölkəsi sayılan Azərbaycanda indiyə qədər bir sıra mötəbər yarışlar təşkil olunub. Onların arasında xüsusilə I Avropa Oyunları və IV İslam Həmrəyliyi Oyunlarını qeyd etmək yerinə düşər. Formula 1 yarışları da həmin tədbirlər sırasında özünəməxsus nüfuza malikdir. Həqiqətən də, Azərbaycan bu yarışlara ev sahibliyi etməklə özünü dünyaya bir daha tanıtdı. Qarşıda bizi futbol üzrə Avropa çempionatı gözləyir. Çox istərdim ki, Bakıda da keçiriləcək final qarşılaşmalarında yığma komandamız da mübarizə aparsın. Lakin təəssüf ki, millimiz bu şansı əldən verdi.

***Könül Kərimova (AZMIU, II kurs):***

- Təhsil və idman böyük məsuliyyət tələbə edən sahələrdəndir. Seçim edərkən diqqətli olmalısan. Çünki bu seçimin gələcək fəaliyyətin üçün həlledici ola bilər.



Hər bir gənc təhsillə yanaşı, fiziki hazırlığa da diqqət yetirməlidir. Çalışıram, hər iki istiqamətdə fərqlənim. Çünki idmana da böyük marağım var. Özüm voleybolla məşğul oluram. Yalnız voleybol yarışlarını izləyirəm. Azərbaycanda keçirilən mühüm idman tədbirləri barəsində geniş məlumatım var. Bir vaxtlar voleybol üzrə ölkə çempionatı çox gərgin və maraqlı keçirdi. Yeni ildə ölkəmiz bir sıra idman yarışlarına ev sahibliyi edəcək. Bu barədə mətbuatdan və sosial şəbəkələrdən oxumuşam. Bilirəm ki, futbol üzrə Avropa çempionatının bir neçə matçı Bakıda keçiriləcək. Hesab edirəm ki, çox maraqlı bir tədbir olacaq.

***Həsən Rəhmanov (ATU, IV kurs):***

- Təhsillə idman bir-birini tamamlayır. Dərs oxuyanda beynimiz yorulur. İdmanla məşğul olduğumuz zaman isə yorğunluğumuz çıxır. Uşaq vaxtlarımdan idmanla məşğul oluram. Cüdo üzrə respublika çempionu adını qazanmışam.



Sambo üzrə idman ustasıyam. Cüdo və sambo ilə yanaşı, futbol və boks yarışlarını da diqqətdə saxlayıram. Bir sözlə, çalışıram ki, Azərbaycanın idman sahəsindəki uğurlarını izləyim. Buna misal olaraq, paytaxtımızda təşkil olunan I Avropa Oyunlarını, IV İslam Həmrəyliyi Oyunlarını və Formula 1 yarışlarını qeyd etmək olar. 2017- ci ildə Bakıda keçirilən IV İslam Həmrəyliyi Oyunlarının qalibi məhz Azərbaycan komandası olmuşdu. Bütün bu qələbələr, sözsüz ki, Azərbaycan idmanının uğurudur.

***Çinarə Quliyeva (AZMİU, II kurs):***

- Düşünürəm ki, yeniyetmə və gənclərin inkişafında həm təhsilin, həm də idmanın öz yeri var. Hər bir tələbə dərsləri il yanaşı, idmana da vaxt ayıra bilər. Düzdür, idmana o qədər də çox marağım yoxdur. Amma futbol yarışlarını sevirəm.



Vaxt tapdıqca televiziya vasitəsilə futbol və tennis oyunlarını izləyirəm. Bundan başqa, ölkəmizdə təşkil olunan mötəbər idman yarışları barəsində də məlumatım var. Hətta özüm də bu yarışlarda könüllü kimi iştirak etmişəm. Ölkəmizin idman sahəsindəki uğurları bu mötəbər yarışlar vasitəsi ilə bir daha dünyaya çatdırıldı. Gələn il futbol üzrə Avro-2020-nin 4 oyunu Bakıda keçiriləcək. Hər birimiz inanırıq ki, bu mötəşəm tədbir ölkəmizin idman salnaməsinə qızıl hərflərlə yazılacaq.

*Hazırladı:*
***Zərintac Məmmədzadə,***
*BDU-nun jurnalistika fakültəsinin tələbəsi*

Yubiley

# Veteran voleybolçumuzun 78 yaşı tamam olur

Azərbaycan voleybolunun veteranı və ilk voleybol meneceri Qriqoriy Maiseyeviç Frişman 1941-ci ildə Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. Anası Tamara Jerebçevskaya respublikamızın tanınmış endekrinoloqu, atası Maisey Frişman isə mərkəzi qəzetlərdə fotomüxbir kimi çalışmışdır.

1965-ci ildə M.F.Axundov adına Dillər İnstitutunu bitirərək əmək fəaliyyətinə Sabirabad rayonunun Qaragünə kənd orta məktəbində müəllim kimi başlamışdır.



O, gənc yaşlarında voleybol idman növünə böyük həvəs göstərmiş, həvəskar komandaların tərkibində müxtəlif yaşlarda iştirak etmişdir. Q.Frişman bir müddətdən sonra Bakı şəhərinə qayıdaraq, "Dinamo" klubunda məşqlərə yazılır.

Tezliklə etimadları doğruldaraq, SSRİ miqyasında tanınmış voleybolçular Oqtay Ağayev, Fazil Rzayev, Yaşar Abbasov və digərləri ilə birlikdə çıxış edib.

Qriqoriy Frişman Azərbaycan Respublikası Milli Aviasiya İdarəsində İdman təlimatçısı vəzifəsində çalışarkən voleybol bölməsi yaratmışdır. Həmin komanda Respublika yarışlarında çıxış etmişdir.

Voleybola olan həvəs və istək onu, nəhayət, 1987-ci ildə böyük idmana gətirir. Tanınmış mütəxəssis Faiq Qarayevin rəhbərlik etdiyi "Neftçi" voleybol klubunda menecer vəzifəsində çalışmağa başlayır.

O, Faiq Qarayevin rəhbərlik etdiyi komanda ilə 1989-cu ildə SSRİ birinciliyində bürünc, 1991-ci ildə isə SSRİ kubokunun qalibi olmuşdur.

Qazanılan uğurların nəticəsində 1989-cu ildə Qriqoriy Maiseyeviç Frişman Respublikanın Əməkdar məşqçisi adına layiq görülmüşdür.

Müstəqilliyimiz dövründə "Azərreyl" klubunda, voleybol üzrə qadınlardan ibarət milli komandada çalışarkən, top-komandalar kubokunun qalibi olmuş, dəfələrlə Avropa və dünya çempionatı yarışlarının iştirakçısı olmuşdur.

Qeyd edək ki, Qriqoriy Frişman yaşının ahıl çağına baxmayaraq, bu gün də voleybolumuzun inkişafına xidmət edir. O, Azərbaycan Voleybol Federasiyasının fəal üzvü, aparıcı mütəxəssisi kimi voleybol ictimaiyyətini arasındadır. Yeni yaranmış "Mübariz" komandasında öz təcrübəsini paylaşır.

Noyabr ayında 78 yaşını qeyd edən Qriqoriy Frişmanı Azərbaycan Voleybol Federasiyasının rəhbərliyi və bütün voleybol ictimaiyyəti təbrik edir, ona cansağlığı arzulayır.

***Azərbaycan Voleybol Federasiyası***

## Klublararası Avropa kuboku yarışlarına yekun vurulub

Monteneqroda keçirilən şahmat üzrə klublararası Avropa kuboku yarışlarına yekun vurulub. Qitə kubokunda debüt edən Azərbaycanın "Vüqar Həşimov" klubu son turda Avstriyanın "Rapid" komandasına 5:1 hesabı ilə qalib gələrək xalların sayını 10-a çatdırıb. Digər komandamız "Odlar Yurdu" isə Serbiyanın "Jelica" komandasını 3:1 hesabı ilə məğlub edib. Yekun nəticəyə görə "Odlar Yurdu" komandası 9 xalla 4-cü, "Vüqar Həşimov" klubu isə 10 xalla 10-cu yeri yeri tutub.

Qeyd edək ki, "Vüqar Həşimov" klubunda Rauf Məmmədov, Vüqar Əsədli, Ülvi Sadıqov, Anar Allahverdiyev, Aydın Süleymanlı, Əhməd Əhmədzadə və ukraynalı qrossmeyster Nataliya Buksa, "Odlar Yurdu" komandasının heyətində isə Günay Məmmədzadə, Ülviyyə Fətəliyeva, Xanım Balacayeva, Gülnar Məmmədova və Zeynəb Məmmədyarova mübarizə aparıblar.

Kişilərdən ibarət komandalar arasında 14 xalla İtaliyanın "Obiettivo Risarcimento" yığması Avropa kubokunu qazanıb. Qadın şahmatçıların yarışında isə Gürcüstanın "Nona" komandası 11 xalla birinci yeri tutub.

Hekayə

# Tanqonun ritmləri altında...



Mobil İSMAYILOV

*(əvvəli qəzetimizin 41-ci sayında)*

Munir qayıdıb divanda təzəcə əyləşmişdi ki, liftdən çıxan Vanda yenə də hamının diqqətini özünə cəlb etdi.

- Paltar sənə çox yaraşır. Son dəbdə marka malı olduğu kənardan bilinir. Əl çantası da paltara uyğundur. Bir sözlə, çox cəlbedici görünürsən, - deyə Munir onu diqqətlə, başdan ayağa qədər süzdü.

- Tanqoya uyğun paltardır. Axı, rəqsdə geyimin əhəmiyyəti çox vacibdir. Heyf ki, hava küləklidir. Gecə də küləyin səsini eşidirdim. Dalğalar böyük idi. Hətta mənə elə gəlirdi ki, dalğalar sahili aşıb otelə çatacaq. Buna baxmayaraq dan yeri qızaran kimi çıxıb sahili gəzməyə başladım. Hə, qayıdaq yenə tanqoya. Ümumiyyətlə, tanqoya münasibətin necədir?

- Əlbəttə, bir rəqs növü kimi tanqonu sevməyən tapılmaz. Təbii ki, mənim də xoşum gəlir. Təəssüf ki, bacarmıram.

- Hələ turnirin başa çatmasına bir həftə qalır. İstəsən, öyrədə bilərəm səni. Bu rəqs incə ruhlu insanlar üçündür. İncə ruhla sevənlərin rəqsidir. Tanqoda yer, göy, ətraf gözünə görünmür. Bu rəqsdə ürəyi isidən bir hərarət var. Təlatüm, məftunluq, füsunkarlıq var. Dillə deyilə bilməyən sözlər baxışlarla, hərəkətlərlə çatdırılır tanqoda.

- Təəssüf edirəm ki, mən bu rəqsin duyğularını yaşamamışam.

- Yoxlayarsan, öyrənərsən. Peşman olmazsan. Görəcəksən halının necə dəyişdiyini. Özünü tanımayacaqsan sanki...

Onlar şəhəri xeyli gəzib-dolaşdılar. Artıq restorana getməyin vaxtı idi. Munir əvvəlcədən Meksika mətbəxli restoranı nəzərdə tutmuşdu. Bu restoranda tanqo rəqsi də ifa olunurdu.

... Çox da böyük olmayan restoran demək olar ki, dolmuşdu. İnzibatçı onları stola qədər ötürdü. Əyləşən kimi saçlarını çiyninə tökən Vanda yenə də tanqodan danışmağa başladı:

- Bu rəqsin təsir gücünün adamı heyran etməsinə əmin olacaqsan. Tanqo qəlbə yatan qeyri-adi rəqsdir. Kövrək, ülvi duyğular tərənnüm edir. Buna görə də rəqsin cazibə dairəsindən çıxmaq olmur. Tanqo məndə sanki pozitiv adrenalin yaradır. Ovqatım olmayanda, yorulanda tanqo rəqslərinə baxıram. Telefonumda da var. Şahmatla məşğul olduğum saatlarda hərdən taym-aut götürüb özümü tanqoya həsr edirəm. Dərhal gərginliyim keçir, hər şey qaydasına düşür.

Musiqi proqramı gitara və royalda solo ifalarla başladı. Bir qədər sonra restoranın cütlüyünün oynadığı tanqoya Vanda az qala nəfəsini dərmədən, gözlərini qırpmadan baxdı. Daha sonra fikrini bildirdi:

- Hiss olunur ki, elə də peşəkar deyillər. Əslində görüntü yaratdılar. Yəqin nə bacardılar, onu da göstərdilər. Gərək tanqo dünyasının sehrinə düşdüyünü anlayasan. Tamaşaçı tilsimlənmiş vəziyyətə düşməlidir. Bu tilsimdən, sehirdən çıxa bilməməlidir. Ürək fərəhlə, sevinclə döyünməlidir. Tanqoda hərəkətlər durna qatarı kimi ard-arda düzülür. Bu durna qatarından birini ayırsan, yəni, hərəkəti düz yerinə yetirməsən, qatarın səfi pozular, sapı qırılmış dənələr kimi dağılar. Bu baxımdan tanqo çox mürəkkəb rəqsdir. Gərək ritmi tutasan, hərəkətləri düzgün, ardıcıllıqla yerinə yetirəsən. Əks halda bu rəqsdən zövq ala bilməzsən. Bir azdan əsl tanqo görəcəksən.

Musiqi proqramında fasilə yaranan kimi Vanda birdən ayağa qalxıb səhnəyə yaxınlaşdı və tanqo oynamaq istəyini bildirdi. Daha sonra cütlüyün yaranması üçün mikrofonla zala müraciət etdi. Əvvəlcə yerindən tərpənən olmadı. Vanda yerinə qayıtmaq istəyirdi ki, stolların birindən orta yaşlı, saqqallı və geyimindən əcnəbi olduğu bilinən bir adam onun yanına gəldi.

Onsuz da cazibədar təsir bağışlayan Vanda rəqs zamanı daha da valehedici idi. Saqqallı adam Vanda ilə ayaqlaşa bilmirdi. Amma hər bir halda tanqo rəqsindən ən azından anlayışı olduğu hiss edilirdi.

Rəqs bitən kimi alqış səsləri zalı bürüdü. Nəinki şam yeməyinə gələnlər, hətta restoranın işçiləri, musiqiçilər də heyran qalmışdı. Hamı maraqlı nəzərlərlə ona baxırdı. Vanda yerində əyləşdikdən sonra stola yaxınlaşıb gül verənlər də oldu. Onun gözləri gecələr bərq vuran ulduzlar kimiydi.

- Mən hələ də özümə gələ bilməmişəm. Ən gözəl hisslərin, duyğuların təsiri altındayam. Özündən xəbərin yoxdur, parıltın ətrafa yayılıb, - deyə Munir qədəhlərə şərab süzdü.

- Eh, alqışları çox görmüşəm. Mənə verilən çiçəklər də heç vaxt başımı gicəlləndirməyib. Belə hallarda insanları məftun etməkdən sərxoş oluram. Bir də şahmatda ümidsiz vəziyyətdən çıxanda, yaxud gözlənilməz qələbə qazananda... Nağıllar şəhəri Parisə turnirə getmişdim. Şahmat qaldı bir tərəfdə, rəqsim hamını təəccübləndirdi. Gözləmirdilər şahmatçıdan bu cür rəqs etməyi. Hətta mənə xüsusi mükafat da verdilər. Maraqlı təkliflər də oldu. Bax, belə... Bəlkə də rəqs ulduzu ola bilərdim. Amma şahmatı da çox sevirəm. Mən tanqodan enerji, güc alıram. Bu, yaşamaq üçün çox lazımdır. Şahmatçı üçün də lap vacibdir.

- Məncə, ən yaxşı enerjini insana sevgi verir.

- Sevgi? Anam deyir ki, yaddan çıxar bu sözü. İndi bu reallığa uyğun gəlməyən sözdür. Məhəbbət də vərdişdir, alışmaqdır.

- Bəs, sən necə düşünürsən?

- Onu deyə bilərəm ki, sevgi çox incə münasibətlərdir. Belə münasibətləri romanlarda oxuyub, filmlərdə seyr etmək olar. Digər tərəfdən də yaxşı ki, sevginin sirri açılmır. Əks halda maraqsız olardı sevgi də. Kim deyə bilər ki, biz öz duyğularımızın ağasıyıq?! Nə ömrümüz, nə də yaşantılarımız bizlik deyil.

- Gəl, tanqo mövzusundan uzaqlaşmayaq, - deyə Munir güldü və söhbəti dəyişmədən növbəti sağlığa keçdi: - Sən gözəl keyfiyyətlərdən ibarət bir buketsən. Odlu qızsan. Tanqo da sənə yaraşır. Çünki odlu insanların rəqsidir. Sən rəqs edəndə, bilirsən ani olaraq nə düşündüm? Tanqo adamın sevdiyinə yaxın olmaq istəyini o qədər artırır, şirinləşdirir ki...

İlk dəfə olaraq Munir Vandanın qoluna və saçlarına toxundu.

Vanda bunu gözləyirmiş kimi, Munirin əlindən tutaraq sözlərinə davam etdi:

- Təsadüfi deyil ki, bu ehtiraslı Argentina rəqsi dünyanın hər yerində sevilir. Axı, qadının tamamilə kişinin təsiri altına düşməsini, bütünlüklə özünü onun iradəsinə tabe etdirməsini, nəhayət, xüsusi bir incəliklə ona təhvil verməsini başqa hansı rəqsdə görə bilərsən?! Başqa heç bir rəqsdə bunları duymaq mümkün deyil...



Rəqs mütəxəssislərinin ümumi fikri belədir ki, yalnız bu rəqs qadının bütün cazibədarlığını ortaya qoyur...

- Necə gözəl hisslərə toxunursan.

- Onda qoy, fikirlərimin bu yerində sağlığımı da deyim. Heç vaxt hisslərini aşkarlamaqdan qorxma. Yersiz qürur, yaxud mənasız ehtiyatlanmaq bütün gözəl duyğuların qənimidir. Yəqin fikirləşirsən ki, mən qəribə qızam, hə? Bəs, dünya, həyat qəribəliklərlə dolu deyil?! İçək, hissləri duya bilənlərin sağlığına!

Əslində əvvəl-əvvəl Vanda Munirə özünü taleyin axarına buraxan, çox da ciddi olmayan, əhlikef bir qız təsiri bağışlamışdı. Amma Munir bu gün yanıldığını başa düşdü. Qarşısında düşünən, xəyallar quran, ağıllı, istedadlı, şıltaqlıq da yaraşan gözəl bir xanım əyləşmişdi.

... Onlar Novxanıya çatanda çox gec olduğundan Munir şəhərə qayıtmayıb oteldə qaldı. Romantik, maraqlı söhbətlər otel nömrəsində də davam etdi.

- Gözəllik müsabiqələrində niyə iştirak etmirsən? Qalib olacağına şübhə etmirəm. Ya istəmirsən, ya da şahmat mane olur.

- Çoxdan bir dəfə iştirak etmişəm. Amma ilk üçlüyə daxil ola bilmədim. Başa düşdüm ki, belə müsabiqələri kim təşkil edib maliyyələşdirirsə, onun namizədi də qalib olur. Ona görə də bir daha müsabiqələrə qatılmadım.

- Hə, elədir. Kombinatorların işidir belə məsələlər. Hər bir halda istənilən gözəllik, rəqs müsabiqəsinin qalibi olmağa layiqsən. Şahmatı da bura əlavə etsək...

- Bakıda təşkil edə bilsən, yəqin ki, qalib ola bilərəm.

Hər ikisi güldülər və bir-birinə sarıldılar. Sükutu birinci Vanda pozdu:

- Həyat ona görə maraqlıdır ki, kimsə gələcəkdə onu nələr gözlədiyini bilmir. Sirli dünyada yaşayırıq. Hərdən qəribə duyğular məni bürüyür. Bu duyğuların içində nələri düşünmürəm?.. Məsələn, indi səninlə ünsiyyətdə olmaq qəlbimdə heyranlıq, şəfqət doğurur. Dəqiqələrlə dinmədən üz-üzə baxmaq... Gözlərin, sifətin çox şey deyir. Çünki onlarda dumduru bir təmizlik var.

- Mən isə elə bil yuxu görürəm.

- Hə, yaxşı ki, yuxudan söz saldın. Sabah bizi növbəti tur gözləyir. Sən yat, mənimsə, yuxum yoxdur. Vaxtı ilə psixoloji cəhətdən problemlər yaşamışam. Əsəbi həyat sürdüyüm dövr də, olub. Həyat tərzi təbii ki, hər şeyə təsir edir. Elə o vaxtlardan yuxum pozulub.

Munir eşitdikləri ilə bağlı sualdolu baxışlarını Vandaya diksə də, o, əlavə heç nə demədi.

Yetərincə yorulmuş Munir bir azdan yuxuya getdi.

... O, səhər tezdən oyananda Vanda otaqda yox idi. Güman etdi ki, sahildədir. O, yanılmamışdı. Vanda dənizin qırağında qumda oturmuşdu. Hava çox gözəl idi. Günəş üfüqdən qalxıb Xəzəri öz nuruna boyamışdı. Xəfif meh əsdikcə, su rəngini dəyişirdi. Günəşin şüaları altında bərq vuran damlalar qeyri-adi görünüş yaratmışdı. Vanda diqqətlə göz oxşayan mənzərəni seyr edirdi. Munirin gəlişini hiss etmədi. Munir lap yaxınlaşan zaman onu gördü. "Ləpələrin pıçıltısını eşidirsən?" - dedi və qalxıb Munirin əlindən tutaraq sahilə tərəf dartdı. Burada gəzişənlərə, idman edənlərə, sentyabr ayına baxmayaraq, hətta çimənlərə də rast gəlirdi.

- Dünyada heç bir dəniz Xəzərin yerini vermir mənə, - deyə Munir dilləndi. Quma, dalğalara, damlalara bax. Dünyanın harasında belə möcüzə var?! Sanki Xəzər mürgüləyir. Günəşin şüaları da mavi sularda bərq vurur.

- Nə gözəl mənzərə, nə gözəl anlardır. Heç bu dəqiqələrin bitməsini istəmirəm. Özümü burada çox rahat hiss edirəm.

- Sentyabrda payız lövhələri dənizin sahilində çox gözəl olur. Günəşin qaynarlığı da azalır.

Səhər yeməyini otelin qabağında açıq havada yedilər. Burada da hər tərəf göz oxşayırdı. Gözəl gül-çiçək qoxusu ətrafa yayılmışdı. Vanda hərdən durur, əyilib gülləri qoxulayır, ora-bura göz gəzdirir, bir neçə addım ataraq gəzir, sonra gəlib yerində əyləşirdi.

Munir fikirləşirdi ki, bu qız demək olar gecəni yatmayıb, görəsən, növbəti partiyanı necə oynayacaq. Ancaq gözlədiyinin əksinə olaraq Vanda turu qələbə ilə başa vurdu. Munir də nəhayət, ilk qələbəsini qazandı.

Munirin qələbəsini bilən Vanda sevincini yumoruna qatdı:

- İstəyirəm xoşbəxtlikdən ağlayam. Deyəsən, tanqo sənə düşərli oldu. Bu gün gəzinti olmayacaq. İstirahət edib tanqo dərslərinə başlayacağıq. Gör, hələ tanqonu öyrəndikdən sonra nələr olacaq. Turnir ekvator xəttini keçmək üzrədir, xal ehtiyatını artırmaq lazımdır.

- Hə, mən də bu fikirdəyəm. Sən liderlər qrupundasan, hər xalın əhəmiyyəti var. O ki, qaldı, tanqo dərslərinə, səbirsizliklə həmin anları gözləyirəm, - deyə Munir bufetdən bəzi şeyləri almağa getdi.

Oteldə bir qədər istirahətdən sonra Vanda telefonunda olan tanqonun ritmləri altında "birinci məşğələdə" böyük həvəslə hər rəqs hərəkətini Munirə izah etməyə, əyani göstərməyə başladı. Fasilələrlə hərəkətlər təkrarlanır, ardınca birgə rəqs edirdilər. Munir yorulsa da, üzə vurmurdu.

Daha sonra Vandanın təklifi ilə tanqo melodiyaları altında sürətli şahmat oynadılar. Hər iki oyunda Vanda qalib gəldi.

- Tanqonu necə oynayıramsa, şahmatı da, elə o cür oynayıram, - deyə Munir güldü.

Telefonundakı tanqo ritmləri altında yenə Muniri rəqsə dəvət edən Vanda:

- Gül, sevin, xoş sözlər danış, əhvalını yaxşı saxla, rəqs elə... Bunlar hamısı bizim üçündü...

Rəqs bitən kimi Vanda duş qəbul etməyə getdi. Munir isə ətirli əla növ Azərbaycan çayı dəmlənməsini sifariş etdi.

- Kaprizlərim səni yormur? Tanqo rəqsi ilə səni təngə gətirmirəm? - xeyli müddətdən sonra qayıdan Vanda elə xalatda da özünü Munirə sıxdı və cavabı da gözləmədən sözlərinə davam etdi:

- Bu rəqsdən xüsusi, izaholunmaz bir zövq alıram. Rəqs boyu hər şeyi unuduram. Sanki ani olaraq dəlicəsinə özümü alovu görünməyən oda atmaqdan qorxmuram. Bir sözlə, bu rəqsin vurğunuyam.

*(ardı var)*

# “Olimpic Moves” layihəsi çərçivəsində məktəbdaxili yarışlar başlayıb



Azərbaycan Respublika Milli Olimpiya Komitəsi, Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, həmçinin Beynəlxalq Olimpiya Komitəsinin ümumdünya tərəfdaşı olan “Coca-Cola” şirkətinin birgə təşkilatçılığı ilə həyata keçirilən məktəblilərin “Olympic Moves” layihəsi çərçivəsində Bakı şəhəri üzrə məktəbdaxili yarışlara start verilib.

Bakı şəhəri üzrə 12 rayondan 291 ümumi təhsil müəssisəsinin təmsil olunduğu məktəbdaxili mərhələdə 13 mindən artıq məktəbli iştirak edir. Yarışlara badminton idman növü üzrə 252, həndbol üzrə 233, veloidman üzrə 247 məktəb qoşulub.

Yarışların ikinci mərhələsinin idman növləri üzrə qalibləri təşkilatçılar tərəfindən diplom və sertifikatlarla təltif olunacaqlar. Final mərhələsində ilk üç yeri tutan komandalar və məşqçilər kubok, medal və qiymətli hədiyyələrlə mükafatlandırılacaqlar. Həmçinin yarışlara mütəmadi azarkeşlik edən məktəbə “Ən yaradıcı və coşğulu azarkeş” nominasiyası üzrə xüsusi mükafat təqdim ediləcək.

Layihə Velosiped, Həndbol və Badminton Federasiyalarının birgə əməkdaşlığı ilə icra olunur.

“Olympic Moves” ümumtəhsil məktəblərində bədən tərbiyəsi və idmanın şagirdlər arasında kütləviləşdirilməsi, məktəblərdə sağlam və aktiv həyat tərzinin təşviqi, Olimpiya idman irsinin davam etdirilməsi məqsədi ilə keçirilir.

Qeyd edək ki, “Olympic Moves” proqramının Azərbaycanda icrasına 2015-ci ildə başlanılıb və bu proqram məktəblilərə sağlam və aktiv həyat tərzinin təşviqində əhəmiyyətli rol oynayır.

# Fikrət Eyyub oğlu Əhmədov



Fikrət Eyyub oğlu Əhmədov 15 noyabr 1933-cü ildə Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. 1941-ci ildə 13 saylı orta məktəbə getmiş, orta təhsilini fəhlə-gənclər məktəbində bitirmişdir. O, 14 yaşından güləşin yunan-Roma növü ilə məşgul olmağa başlamış və qısa müddətdə özünü perspektivli idmançı kimi göstərmişdir. Fikrət Əhmədov dəfələrlə Azərbaycan birincilikləri və çempionatlarının qalibi olmuşdur. Yüksək idman göstəricilərinə görə SSRİ idman istası adına layiq görülmüşdür. 1958-ci ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman İnstitutuna qəbul olunmuş, 1963-cü ildə həmin institutu bitirmişdir. Əmək fəaliyyətinə 1960-cı ildə Azərbaycan Dəmir Yolları İdarəsinin “Yoltikintitəmiri” trestində idman metodisti kimi başlamışdır. 1960-1967-ci illərdə Bakı şəhəri Baş Maarif İdarəsinin “Mərkəzi Uşaq Gənclər İdman Məktəbində” klassik güləş üzrə məşqçi işləmişdir. 1967-1968-ci illərdə məşqçilik fəaliyyətini “Dinamo” İdman Cəmiyyətinin Respublika Şurasında davam etdirmişdir.1968-1972-ci ildə “Vodnik” İdman Cəmiyyətində baş məşqçi kimi güləşin sirlərini yeniyetmə və gənclərə öyrətmişdir.

1972-1973-cü illərdə “Məhsul” Kənd İdman Cəmiyyətinin Respublika Şurasında baş məşqçi kimi çalışmışdır. 1973-cü ildə işlədiyi Respublika İdman İnternat Məktəbindən baş məşqçilikdən köçürmə yolu ilə Respublika Yüksək İdman Ustalığı Məktəbinə direktor müavini vəzifəsinə təyin edilmişdir. 1978-ci ilədək direktor müavini işlədikdən sonra həmin ildən RYİUM-də güləş növləri üzrə baş məşqçi olmuşdur. Bu vəzifədə 1980-cı ilədək fəaliyyət göstərən F.Əhmədov 1980-1981-ci illərdə “Ehtiyat Əmək Qüvvələri” İdman cəmiyyətinin Respublika Şurasında baş məşqçi işləmişdir. 1981-ci ildən 1985-ci ilədək o, Respublika Yüksək İdman Ustalığı Məktəbində məşqçi, 1985-1986-cı illərdə direktor müavini, 1986-1991-ci illərdə isə baş məşqçi işləmişdir. 1991-1992-ci illərdə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Komitəsində mütəxəssis vəzifəsində çalışmışdır. 1992-ci ildən 1997-ci ilədək Respublika Yüksək İdman Ustalığı Məktəbində klassik güləş üzrə baş məşqçi kimi fəaliyyət göstərmişdir.

1997-ci ilin noyabr ayında Azərbaycan Respublikasının Milli Olimpiya Komitəsinin idman idarəsinə baş mütəxəssis təyin edilmişdir. 2001-ci ildə o, MOK-un idman idarəsində idman direktoru vəzifəsinə irəli çəkilmişdir. Bu vəzifədə təqaüdə çıxana qədər - 2016-cı ilədək işləmişdir.

Azərbaycan Respublikasının Milli Olimpiya Komitəsində işlədiyi dövrdə Sidney-2000, Afina-2004 Yay Olimpiya Oyunlarında və 2005-ci ildə Səudiyyə Ərəbistanında keçirilən İslam Həmrəyliyi Oyunlarında iştirak edən nümayəndə heyyətinin şef-demissionunun müavini olmuşdur. Fikrət Əhmədov yüksək dərəcəli idmançılar hazırladığına görə Azərbaycanın “Əməkdar məşqçi”si adına layiq görülmüşdür. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə ona 25 dekabr 2006-cı ildə Azərbaycanın “Əməkdar Bədən Tərbiyəsi və idman Xadimi” fəxri adı, 2007-ci ildə isə “Tərəqqi” medalı verilmişdir. O, Prezident təqaüdünə layiq görülmüşdü. Bütün mənalı ömrünü idmana həsr edən Fikrət Eyyub oğlu Əhmədov 86 yaşında vəfat etmişdir.

Allah rəhmət eləsin!



## Spartakiadanın nərd və dama yarışları yekunlaşdı

“Zenit” Bədən Tərbiyəsi İdman Cəmiyyəti İctimai Birliyinin xidmət sahəsinə daxil olan müəssisə və təşkilatların Azərbaycan Respublikasının “Dövlət Müstəqilliyi Günü”nə həsr olunmuş XXI Respublika Spartakiadası davam edir.

Artıq spartakiada çərçivəsində keçirilən nərd və dama yarışlarına yekun vurulub.

Maraqlı mübarizə şəraitində keçən nərd yarışlarında birinci yerə Aviasiya İşçiləri Hİ RK-nın komandası layiq görülüb. Avtomobil Nəqliyyatı və Yol Təsərrüfatı İşçiləri Hİ RK-ın komandası ikinci yeri tutub. Müdafiə Sənayesi İşçiləri Hİ RK-nın komandası isə üçüncü olub.

Dama yarışlarında isə Avtomobil Nəqliyyatı və Yol Təsərrüfatı İşçiləri Hİ RK-ın komandası sahib çıxıb. Metropoliten İşçiləri Hİ ikinci, Aviasiya İşçiləri Hİ RK-nın komandası isə üçüncü yeri tutublar.

Qeyd edək ki, yarışların proqramına 10 idman növü (futbol, voleybol, daşqaldırma, kəndirdartma, stolüstü tennis, üzgüçülük, dama, nərd, şahmat, güllə atıcılığı) daxildir.

Məlumat üçün bildirək ki, spartakiadanın keçirilməsində əsas məqsəd zəhmətkeşlərin sağlamlığının möhkəmləndirilməsi, onların bədən tərbiyəsi və idman məşğələlərinə cəlb edilməsini təmin etmək, müəssisə və təşkilatların fəhlə və qulluqçularının asudə vaxtını səmərəli keçirməkdən ibarətdir.

XXI Respublika Spartkiadasına noyabrın 22-də yekun vurulacaq.

## “Zenit” İC-in yetirmələri Rusiyadan uğurla qayıdıblar

Bu yaxınlarda Rusiyada “Qafqaz” aşırımlarının müdafiəçilərinin xatirəsinə həsr olunmuş boks üzrə beynəlxalq turnir keçirilib. Turnirdə “Zenit” Bədən Tərbiyəsi İdman Cəmiyyəti İctimai Birliyinin yetirmələri də qüvvələrini sınayıblar. “Zenit” İC-in yetirmələri beynəlxalq turnirdə uğurla çıxış edərək 3 qızıl, 1 gümüş və 2 bürünc medala sahib çıxıblar. Təmsilçilərimizdən Əli Abbasov (57 kq), Fərid Kosayev (52 kq) və Nihad Məmmədli (56 kq) bütün rəqiblərinə qalib gələrək, fəxri kürsünün ən yüksək pilləsində yer alıblar. 49 kq çəki dərəcəsində mübarizə aparan Kənan Əhmədov turnirin gümüş medalına layiq görülüb. İdman cəmiyyətinə bürünc medalları isə Əhəd Rüstəmli (36 kq) və Pərviz Məhərrəmov (69 kq) qazandırıblar.

## *“Judo Club 2012”nin yetirmələri uğurlarını artırırlar*

Son illərdə respublikamızın idman həyatında fəallığı ilə diqqət çəkən “Judo Club 2012” öz uğurlarını davamlı olaraq artırır. Klubun yetirmələri həm ölkədaxili, həm də beynəlxalq yarışlarda uğurla çıxış edərək parlaq qələbələr qazanırlar. Bu yaxınlarda klubun gənc cüdoçuları iki mötəbər yarışda uğurla təmsil olunaraq yüksək nailiyyətlər əldə ediblər. Belə ki, klubun yetirməsi Nurlan Osmanov (66 kq) Rusiyanın İjevsk şəhərində 23 yaşınadək cüdoçular arasında keçirilən Avropa birinciliyində qüvvəsini sınayıb. 33 ölkədən 235 idmançının (135 kişi, 100 qadın) mübarizə apardığı mötəbər yarışda klubun gənc üzvü gümüş medal qazanıb. Mübarizəyə 1/16 final mərhələsindən başlayan cüdoçumuz müvafiq olaraq, Belarus, Macarıstan, İsveçrə və İtaliya idmançılarına qalib gələrək finala vəsiqə əldə edib. Klubun istedadlı yetirməsi həlledici qarşılaşmada Rusiya idmançısı Murad Çopanovla üz-üzə gəlib. Cüdoçumuz gərgin mübarizə şəraitində keçən görüşdə rəqibinə məğlub olaraq qitə çempionatının gümüş medalına sahib çıxıb.




Klubun adına digər uğuru isə Azərbaycan cüdosunun ən gənc istedadlı nümayəndələrindən biri olan Murad Fətiyev (81 kq) qazandırıb. O, bu uğura Avstraliyanın Pert şəhərində keçirilən Okeniya açıq turnirində nail olub. Tokio-2020 Yay Olimpiya Oyunlarına lisenziya xarakteri daşıyan yarışda cüdoçumuz bürünc medala sahib çıxıb. Mübarizəyə 1/32 finaldan başlayan təmsilçimiz ilk mərhələdə Fransa, növbəti görüşdə isə uruqvaylı idmançını üstələyib. Lakin gənc cüdoçumuz 1/8 finalda braziliyalı rəqibinə məğlub olub. Bürünc medal uğrunda təsəlliverici görüşə çıxan idmançımız bu mərhələdə Avstriya cüdoçusuna qalib gəlib. Murad Fətiyev həlledici görüşdə italiyalı Andrea Regisə də qalib gələrək bürünc medala sahib çıxıb. Tokio Olimpiya Oyunlarına lisenziya xarakteri daşıyan “Okeaniya Open” turnirində bürünc medal qazanan Murad Fətiyev aktivinə 350 xal yazdırıb. Gənc cüdoçumuz hazırda dünya reytinqində 43-cü, Olimpiya reytinqində isə 36-cı pillədə qərarlaşıb.

Qeyd edək ki, “Okeaniya Open” turnirində 66 ölkədən 309 (160 kişi, 149 qadın) cüdoçu qalib adı uğrunda mübarizə aparıb.

* * *

Macarıstanın Monor şəhərində vadokai karate üzrə 47-ci Avropa çempionatı keçirilib. 16 ölkədən 600-dən çox idmançının iştirak etdiyi yarışda Azərbaycan karateçiləri də qüvvələrini sınayıblar. Çempionatda ölkəmiz 10 idmançı ilə təmsil olunub. Avropa Vado-Kai Karate-Do Federasiyasının Azərbaycandakı rəsmi nümayəndəsi, “Judo Club 2012”nin karate bölməsinin rəhbəri, Əməkdar məşqçi Gündüz Mahmudovun rəhbərliyi altında Macarıstana yollanan karateçilərimiz fərdi yarışlarda 7 (2 qızıl, 4 gümüş, 1 bürünc) medal qazanıblar. Karateçilərimiz komanda yarışlarında da uğurla çıxış ediblər. 16-17 yaşlı idmançıların mübarizəsində bütün rəqiblərinə qalib gələn Azərbaycan komandası birinci yeri tutub.

47-ci Avropa çempionatında medal qazanan idmançılar arasında “Judo Club 2012”nin yetirmələri də var. Çempionatda 8 idmançı ilə təmsil olunan klubun üzvləri fərdi yarışlarda 6 (2 qızıl, 3 gümüş, 1 bürünc) medala layiq görülüb. 14-15 yaşlı idmançıların mübarizəsində çıxış edən “Judo Club 2012”nin karateçisi Musa Məmmədov - 63 kq çəki dərəcəsində qızıl medala sahib çıxıb. Klubun digər istedadlı yetirməsi Fərid Ağayev (- 76 kq) isə 16-17 yaşlı idmançıların yarışında fəxri kürsünün ən yüksək pilləsində yer tutub. Kluba gümüş medalları 14-15 yaşlı idmançılar arasında çıxış edən Rəsul Abbasov (- 57 kq), həmçinin 16-17 yaşlı idmançılar arasında yarışan Abbas Dadaşov (- 68 kq) və Adil Quliyev (- 76 kq) qazandırıblar. Klubun digər idmançısı Kənan Babayev (- 68 kq) isə 16-17 yaşlı idmançıların mübarizəsində bürünc medala sahib olub.

“Judo Club 2012”nin yeniyetmə karateçiləri fərdi mübarizələrlə yanaşı, komanda yarışlarında da uğurla çıxış ediblər. Heyətində Kənan Babayev, Fərid Ağayev və Abbas Dadaşovun da yer aldığı komandamız 16-17 yaşınadək idmançılar arasında birinci yeri tutub.

Qeyd edək ki, Macarıstana yollanan Azərbaycan yığmasının tərkibində




“Judo Club 2012”nin karate bölməsi üzrə baş məşqçisi Namiq Pirverdiyev də yer alıb. Milli dərəcəli hakimimiz Vidadi Mahmudov isə 47-ci Avropa çempionatında ədaləti qoruyub.



# Dünya-idmanı

## Lebronun köynəyi hərracda böyük məbləğə satılıb

“Los Anceles Leykers” komandasının forvardı Lebron Ceymsin məktəb vaxtı çıxış etdiyi idman forması hərracda 187 min 500 dollara satılıb. Lebron 2002-ci ildə 17 yaşında olarkən bu geyimdə “Sports Illustrated” jurnalının üz qabığında yer alıb.




Qeyd edək ki, üçqat NBA çempionu olan Lebron üç dəfə pley-off mərhələsinin ən dəyərli, dörd dəfə isə mövsümün ən yaxşı oyunçusu adını qazanıb.

## Xanımına qeyri-adi hədiyyə edən pilot

Formula 1 yarışlarının yeddiqat dünya çempionu Mixael Şumaxerin həyat yoldaşı Korinna maraqlı açıqlama verib. O, həmişə həyat yoldaşına minnətdar olacağını deyib.



“Mixael mənim üçün hər şey edirdi. Yadımdadır ki, 30 yaşım olanda, istəyirdim, mənim atım olsun. Mixael evliliyimizin 10 illiyində mənə İsveçrədə at ferması bağışladı. Bu mənim üçün ən unudulmaz hadisələrdən biri idi. Şumaxer hər zaman orada yaşayacağı və heyvanların necə qayğısına qalacağı barədə danışırdı. O mənim hər arzumun həyata keçməsində vasitəçi olub”, - deyə Korinna bildirib.

Qeyd edək ki, hazırda Korinnanın İsveçdə və ABŞ-da 40-a yaxın atı olan iki ferması var.

Xatırladaq ki, Formula 1-in əfsanəsi 2013-cü ilin dekabr ayında Alp dağlarında xizək sürərkən, başından ciddi xəsarət alıb. Bir neçə ay komada olan idmançı, 2014-cü ildən ailəsinin himayəsi altında yaşayır.

Şumaxerin ailəsi 6 ildir ki, idmançı ilə bağlı bütün məlumatları gizli saxlamağa çalışır.



*Üfüqi*

2. Avropa çempionatının rəsmi topu. 4. “Köhnə qitə”. 5. “Cırtdan ölkə”. 9. Futbolçunun öz qapısına vurulan qol. 10. VI Qış Olimpiya oyunları bu şəhərdə keçirilib. 11. Rusiyada nəşr olunan idman jurnalı. 12. Bakıda küçə. 13. Ağırlıqqaldırma üzrə yığma komandamızın üzvü. 17. Şahmatda fiqur. 18. Fransada şəhər və futbol klubu. 19. Moskva “Spartak”ının baş məşqçisi. 22. Matçda bir futbolçu tərəfindən vurulan iki qol.

*Şaquli*

1. Qılıncoynatmada növ. 3. “Mersedes”in keçmiş pilotu. 6. Karate növlərindən biri. 7. Cüdo üzrə yığma komandamızın legioneri. 8. NBA-nın müntəzəm çempionatında çıxış edən komanda. 14. İtaliyalı baş məşqçi. 15. Künc zərbəsi. 16. FİDE-nin keçmiş prezidenti. 17. FİFA-nın baş katibi... Samura. 20. İdman arenası. 21. Cənubi Amerika qitəsini əhatə edən futbol qurumu.

## Messi yalnız Zidandan köynək istəyib




Lionel Messi karyerasında ilk dəfə rəqib komandasının oyunçusunun köynəyini istəməsi barədə danışıb. “Mən oyundan sonra heç bir futbolçunun köynəyini istəmirəm. Adətən həmin futbolçu ilə köynəklərimizi dəyişirik. Lakin bir dəfə Zidandan köynəyini istəmişəm. Ümumiyyətlə, rəqib komandanın heyətində argentinalı futbolçu varsa, onunla köynəyimi dəyişirəm. Heç kəs məndən bunu xahiş etmirsə, mən də heç kəsə belə müraciətlə yaxınlaşmıram.

## Aptekdən qayıdarkən qatar vurdu

18 yaşlı ukraynalı boksçu Amina Bulax qatarın altında qalaraq dünyasını dəyişib. Hadisə Kiyev vilayətinin Tarasovka kəndinə baş verib. Belə ki, boksçu gecə radələrində qatar yolu ilə aptekdən evə qayıdırdı. İdmançının qulağında qulağcıq olduğu üçün gələn qatarın səsini eşitməyib.




Qeyd edək ki, Amina Bulax boks üzrə Ukrayna çempionu və Avropa çempionatının bürünc mükafatçısı idi.

**olimpnews.az - sizin saytınız**




## Cazibədar tennisçinin Safari təəssüratları



Məşhur tennisçi Mariya Şarapova Afrikanın Safari parkında gəzintidə olub. Botsvanada olan rusiyalı tennisçi heç vaxt yaxından görmədiyi yeni heyvanlarla qarşılaşıb. Əvvəlcə o, hepardla üz-üzə gəlib. Daha sonra idmançı vəhşi camış sürüsü, sonra isə fil ilə tanış olub. Mariyanın sözlərinə görə, o, zebra sürüsündən gözünü çəkə bilməyib. Kərgədanı canlı görmək, cazibədar xanıma xüsusi zövq verib. “Niyə heç kəs mənə daha əvvəl Safariyə gəlməyimi deməyib?”, - deyə Mariya özünün şəxsi instaqram hesabında paylaşım edib.

Olimpiya dünyası

Baş redaktor: M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet “Olimpiya dünyası”nın kompüter mərkəzində yığılır, səhifələnir və “CBS” mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı günü çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən “Olimpiya dünyası”na istinad etmək zəruridir.

*E-mail:* olimpiya_dunyasi@mail.ru
*Ünvan:* Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49; 564-74-19